QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 054 (5526) 23 **mart** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan xalqının yeganə seçimi İlham Əliyevdir!




3

"İlham Əliyevə səs vermək sabitliyə, inkişaf və tərəqqiyə səs vermək deməkdir"



3

Azərbaycanda yaşı 100 və 100-dən yuxarı olan 371 seçici var



16

Ronaldo Çin klubuna gedir ?



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
23 mart 2018-ci il

# Dövlət başçısının həyata keçirdiyi siyasət humanizm prinsiplərinə söykənir

*Azərbaycan Prezidentinin Sərəncamı ilə əhalisi 306 mindən çox olan 15 şəhər və rayonda uşaq bağçaları tikiləcək*

***Azərbaycanın sürətlə inkişafı ölkəmizin dünya dövlətləri arasında böyük gücə və nüfuza malik dövlət oluğunu təsdiqləyir. 14 il əvvəl, qarşıya qoyulan strateji məqsədlər, həyata keçirilən səmərəli daxili və xarici siyasət nəticəsində, bütün sahələrdə möhtəşəm uğurlar əldə edilib. Dövlət tərəfindən həyata keçirilən milli strategiya, yürüdülən ictimai-siyasi, mədəni mövqe, məhz Azərbaycan ətrafında yüksək imicin formalaşmasına gətirib çıxarıb. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft və bununla bağlı imzalanan beynəlxalq sazişlər, müqavilələr dövlətin maliyyə vəsaitinin yüksəlməsinə və bunun müqabilində ölkənin, bütövlükdə, sferasının dəyişməsinə səbəb olub. Dövlət başçısı Cənab İlham Əliyevin Azərbaycan iqtisadiyyatına gəlir gətirə biləcəyi qeyri-neft sektorunun inkişafını zəruri hesab etməsi, əlbəttə ki, mövcud faktorlara əsaslanır. Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir.***






Bu gün qətiyyətlə deyə bilərik ki, dövlət başçısının uğurlu fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olunub. Ölkəmizdə həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və əldə olunan uğurlar, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunmuş dövlət proqramları, elm, təhsil və mədəniyyət sahəsinə qayğının artırılması, bu və ya digər sahələrdə mühüm qərarların qəbulu nailiyyətlərimizin göstəricisidir. Son 14 il ərzində həyata keçirilən siyasətin uğurlu nəticələrini nəzərə çatdırmaq üçün müxtəlif sahə və sektorlara aid olan real statistik faktları nəzərdən keçirmək kifayətdir ki, bu uğurların Azərbaycan insanının, vətəndaşının sosial-rifahının, həyat tərzinin dəyişilməsi və fiziki və mənəvi cəhətdən sağlamlığına təsir göstərdiyinin əyani şahid olasan. Müasir Azərbaycan vətəndaşının özünü gümrah, sağlam, rahat və təminatlı hiss etməsi, məhz Azərbaycanda vətəndaşa göstərilən diqqət və qayğının nəticəsidir. Sosialyönümlü siyasətin nəticəsi olaraq, son on dörd ildə əmək haqları və pensiyalar artırılıb, məcburi köçkünlərin problemləri həllini tapmışdır. Səhiyyə sahəsində də nəzərəçarpacaq işlər görülmüş, 600-ə qədər yeni səhiyyə müəssisəsi - xəstəxanalar, poliklinikalar tikilib və ya əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilib. Həmçinin, səhiyyə müəssisələri ən müasir avadanlıqlarla təchiz olunub, bu müddət ərzində, səhiyyə sahəsindəki xidmətin keyfiyyəti ciddi surətdə artıb. Yeni məktəblər tikilmiş və ya əsaslı təmir və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

## UŞAQLARIN SAĞLAM MÜHİTDƏ BÖYÜMƏSİ VƏ TƏRBİYƏ OLUNMASI, MÜVAFİQ STANDARTLARA CAVAB VERƏN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ OXUMASI ÜÇÜN HƏR CÜR ŞƏRAİT YARADILIB

Uşaq hüquqlarının tam həcmdə təmin edilməsi, uşaq problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Təsadüfi deyildir ki, dünyada hökm sürən qlobal iqtisadi böhran fonunda Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın gələcəyi olan, cəmiyyətimizin uşaqlara diqqət və qayğısı nəzərəçarpacaq dərəcədə artıb. Onlara uşaqlıqda göstərilən qayğı və məhəbbət gələcək fiziki sağlamlığın, mənəvi saflıq və zənginliyin rəhni kimi qəbul edilir. Azərbaycan cəmiyyəti tarixən uşaqlara ən xoş münasibət və qayğının örnəyi olmuşdur. Bu gün uşaqların sağlam mühitdə böyüməsi və tərbiyə olunması, müvafiq standartlara cavab verən təhsil müəssisələrində oxuması üçün hər cür şərait yaradılmışdır. Uşaqların keyfiyyətli təhsil və yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilmələri, hərtərəfli qayğı ilə əhatə olunmaları, onlar üçün zəruri şəraitin yaradılması, böyüməkdə olan neslin şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması başlıca prinsiplərindəndir.

Uşaq hüquqlarının tam şəkildə reallaşması, hər bir uşağın öz potensialını göstərə bilməsi üçün mükəmməl hüquqi baza yaradılmışdır. Ötən illər ərzində milli qanunvericilik və normativ-hüquqi aktlar, mütəmadi olaraq, təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsinə yönəlmiş bir çox dövlət proqramları qəbul edilmişdir.



Uşaqların təlim-tərbiyəsində uşaq bağçalarının rolu danılmazdır. Qeyd edək ki, son illərdə ölkədə məktəbəqədər təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda məktəbəqədər təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Azərbaycanda təhsilin inkişafı, gənclərimizin sağlam və savadlı böyüməsi Heydər Əliyev Fondunun siyasətinin prioritet istiqaməti olduğundan, bu sahədə fondun təşəbbüsü ilə həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" proqramları və "Təhsilə dəstək" layihəsi çərçivəsində ölkəmizdə təhsilin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə gətirib çıxarmışdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri, Mehriban Əliyeva uşaqların hərtərəfli inkişafı, onların müasir tələblərə uyğun təhsil və tibbi xidmətlərlə təmin olunması, uşaq problemlərinin həlli istiqamətində mühüm layihələr həyata keçirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Xəzər rayonunda, Qala qəsəbəsində, Ağcabədidə, Samuxda və digər rayonlarda müasir səviyyədə və yüksək keyfiyyətlə inşa edilən körpələr evi-uşaq bağçası bütün zəruri avadanlıq, o cümlədən, uşaqlarla işləmək üçün lazımi inventar və oyuncaqlarla təmin edilib. Burada uşaqların bilik və bacarıqlarının üzə çıxarılması üçün hərtərəfli imkanlar yaradılıb. Məşğələ otaqlarında uşaqlar ilkin yazı, rəsm və oxu vərdişlərinə yiyələnirlər. Təhsil müəssisələrində kompüter otaqları fəaliyyət göstərir. Balacaların qidalanması və istirahəti üçün də burada gözəl şərait yaradılıb, təhlükəsizliyin təmin edilməsi məqsədilə müşahidə kameraları da quraşdırılıb. Körpələr evi-uşaq bağçalarının həyətində balacalar üçün maraqlı attraksionlar quraşdırılıb və yaşıllıq zolağı salınıb.

Görülən bütün bu işlər, bir daha təsdiqləyir ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət humanizm prinsiplərinə söykənir. Azərbaycanda gələcəyimiz olan uşaqlara xüsusi diqqətlə yanaşılır, onların sağlam, bilikli, savadlı və intellektli olmaları üçün ardıcıl tədbirlər həyata keçirilir. Göründüyü kimi, son illərdə paytaxtla yanaşı, bölgələrimizdə də bir çox uşaq tərbiyə və təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılıb və yeni uşaq bağçaları tikilib. Belə layihələrin icrasında əsas məqsəd məktəbəqədər təhsildə əvvəllər mövcud olan çatışmazlıqların aradan qaldırılması idi və buna da nail olunur. Bütün bu addımlar isə, Azərbaycanın uğurlu gələcəyinə hesablanıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əli Əhmədov: "İlham Əliyevə səs vermək sabitliyə, inkişaf və tərəqqiyə səs vermək deməkdir"

***"Cənab İlham Əliyevin növbəti dəfə prezidentliyə namizədliyinin irəli sürülməsi xalqımız tərəfindən bayram əhval-ruhiyyəsi ilə qarşılanır. Biz növbəti dəfə "İlhamla İrəli!" şüarı ilə seçki kampaniyasına başlamışıq". Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi, prezidentliyə namizəd İlham Əliyevin səlahiyyətli nümayəndəsi Əli Əhmədov prezident seçkilərinin təbliğat- təşviqat kampaniyası çərçivəsində Nərimanov rayonunda keçirilən mitinqdə çıxışı zamanı deyib.***



Əli Əhmədov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daim irəliləyib. Azərbaycan hazırda regionun lider dövlətidir, ölkəmizin beynəlxalq aləmdə mövqeyi xeyli güclənib. Azərbaycan iqtisadiyyatının inkişaf etməsi, müasirləşməsi ölkəmizin həm regionda, həm də dünyada mövqeyini ciddi şəkildə möhkəmləndirib. Onun sözlərinə görə, Azərbaycan neçə ildir ki, bölgənin lideri statusunu daşıyır və bu statusu heç zaman əldən verməyəcək. Azərbaycanın beynəlxalq aləmdə də nüfuzu güclənməkdədir.

YAP Sədrinin müavini qeyd edib ki, ötən 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib, yeniləşib. Bu dövrdə əhalinin rifahı əhəmiyyətli dərəcədə yüksəlib və bu yüksəlişi hər bir vətəndaş öz həyatında hiss etməkdədir. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin nəticəsidir.

"Ona görə də biz yenə də "İlhamla İrəli!" deyərək seçki kampaniyasını uğurla aparırıq. Cənab İlham Əliyev 15 il ərzində Azərbaycan üçün möhtəşəm nailiyyətlərə imza atıb. Bu səbəbdən də, İlham Əliyev yüksəliş, inkişaf, tərəqqi deməkdir. O, hər bir azərbaycanlının firavanlığı üçün çalışır. Buna görə də bütün xalqımız İlham Əliyevi sevir, Onu dəstəkləyir. İstər gənc olsun, istər qadın, istərsə də yaşlı nəslin nümayəndələri - bütün vətəndaşlarımız cənab İlham Əliyevə inanır və etimad göstərirlər. Çünki cənab İlham Əliyevə səs vermək sabitliyə, inkişaf və tərəqqiyə səs vermək deməkdir"-deyə, Əli Əhmədov vurğulayıb.

# Qərar dəyişməzdir!

## *Ucarlılar seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər*



Dünən prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsi rayonun Qazyan kəndində partiyanın namizədi Cənab İlham Əliyevə seçkilərdə dəstək məqsədi ilə təbliğat-təşviqat xarakterli mitinq keçirib. Mintinqdə Qazyan kənd sakinləri, ziyalılar, qadınlar, gənclər və ağsaqqallar aktiv iştirak ediblər.

Mintinqi giriş sözü ilə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva açaraq, qeyd edib ki, bu gün Azərbaycanın inkişaf və tərəqqisi istiqamətində əldə edilən hər bir uğurun arxasında Cənab İlham Əliyevin mütərəqqi siyasəti dayanır: "Bu baxımdan, öz ölkəsini, Vətənini sevən hər bir vətəndaş həmin inkişafın davamlı olması naminə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməli, bununla ölkəmizin güclü dövlətlər sırasındakı yerini daha da möhkəmlənməsinə dəstəyini əsirgəməməlidir."



Mitinqdə qrupun üzvləri Alı Babayev, Yaqut Zeynalova və Rahib Rəsulov çıxış edərək Yeni Azərbaycan Partiyasının namizədi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının rəhbərliyi altında 2003-2018-ci illərdə müstəqil Azərbaycanımızın qazandığı mötəşəm tarixi nailiyyətlər haqqında ətraflı məlumat verərək seçiciləri partiyanın namizədi, Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Seçicilər adından Qazyan kənd 3 saylı tam orta məktəbin müəllimi Aidə Hüseynova çıxış edərək, seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

***Rövşən NURƏDDİNOĞLU***




## İLHAMLA İRƏLİ

Səs ver, uca millətim, haqqın təntənəsinə,
Səsini qat sən onun uca, məğrur səsinə.
Dünya ayağa qalxsın, qoy onun gur səsinə,
"Azərbaycan"- deyəndə, "Qarabağ"-söyləyəndə!
İnamla irəliyə! İlhamla irəliyə!
Səs ver bacım-qardaşım, səs ver nurlu sabaha,
Lələtəpə zəfərli bir qürurlu sabaha.
Şuşalı, İrəvanlı, Zəngəzurlu sabaha,
Gedək yeni zamanla, dövranla irəliyə
İlhamla irəliyə, İlhamla irəliyə!
Səs ver, əsgər atası, Ali Baş Komandana,
Oğlun əmanət Ona, Vətən əmanət Ona.
O millətə inanır, inanır millət Ona.
Edək düşmən üstünə, son həmlə irəliyə,
İlhamla irəliyə, İlhamla irəliyə!
Səs ver ərən millətim, döyüşdə ər oğluna!
Ulu Öndər övladı, Ulu Öndər oğluna,
İşıqlı sabahını tapşır Heydər oğluna.
Günəş tək şəfəq yayar, ay kimi nur çiləyər,
İlhamla irəliyə, İlhamla irəliyə!
Seç, bu doğru seçimdən qoy Vətən də sevinsin!
Seç, balan da sevinsin, seç, nəvən də sevinsin!
Göydə Allah bəyənsin, yerdə bəndə sevinsin!
Get bu ülvi niyyətlə, inamla irəliyə,
İlhamla irəliyə, İlhamla irəliyə!
Ver qüdrətli əllərə bu dövləti, bu taxtı,
Sənə, şanlı millətim, Tanrı verib bu haqqı.
Torpaq haqqı, Od haqqı, Səma haqqı, Su haqqı,
Bu ən doğru seçimdir, addımla irəliyə!
İlhamla irəliyə, İlhamla irəliyə!

***MUSA URUD***

## Azərbaycanda yaşı 100 və 100-dən yuxarı olan 371 seçici var

Azərbaycanda yaşı 100 və 100-dən yuxarı olan 371 seçici var. Onlardan 344-ü qadın, 27-si kişidir. Bu barədə AZƏRTAC-a açıqlamasında Mərkəzi Seçki Komissiyasının media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib. "Seçkilərə hazırlıq prosesi Mərkəzi Seçki Komissiyasının təqvim planına uyğun olaraq aparılır. Ölkə üzrə bütün seçki məntəqələri lazımi avadanlıqla təmin olunub. Seçkilərin yüksək səviyyədə hazırlanaraq azad, şəffaf və ədalətli keçirilməsi üçün bütün zəruri addımlar atılır", - deyə Ş.Əsədli bildirib. Xatırladaq ki, 11 aprel prezident seçkiləri 125 seçki dairəsi və 5641 seçki məntəqəsi üzrə keçiriləcək.



# Xalq İlham Əliyevə "HƏ" deyir!



## Binəqədi






Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında bu il aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu islahatlardan və o islahatların nəticəsi olaraq əldə olunan çoxsaylı nailiyyətlərdən danışıb. Qeyd edib ki, Azərbaycanın iqtisadi uğurları günbəgün artır və iqtisadi uğurların qazanılması ilə ölkəmizin ictimai-siyasi sabitliyi, xalqımızın rifah halının daha da yaxşılaşdırılması təmin edilir. O, həmçinin, Azərbaycanın kosmos ailəsinin üzvü olduğunu xatırladaraq, 2 peykimizin orbitə buraxılmasını mühüm tarixi qələbə adlandırdı və bütün bunların dövlət başçısı Cənab İlham Əliyevin uzaqgörən siyasətinin bəhrəsi olduğunu söylədi. R.Göyüşov xalqımızı, seçiciləri ayıq-sayıq olmağa və dövlət başçısı Cənab İlham Əliyevin ətrafında sıx birləşməyə səsləyib. R.Göyüşov çıxışının sonunda Azərbaycanın daha da inkişaf etməsi, təhlükəsiz, müstəqil, daha qüdrətli ölkə olaraq qələbələr qazanması naminə bütün seçiciləri bu ilin 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin üzvü Hüseyn Əsgərov çıxış edərək, xalqımızı və seçicilərin hər birini ölkəmizin sürətli inkişafına öz töhfəsini verməyə və Cənab İlham Əliyevi dəstəkləməyə çağırdı.

Görüşdə seçicilər adından çıxış edən Binəqədi rayonu 157 saylı tam orta ümumtəhsil məktəbinin müəllimi, seçici Orxan Rəfiyev bir gənc vətəndaş və müəllim olaraq dövlət başçısı Cənab İlham Əliyevin gördüyü işlərin onda qürur hissi oyatdığını, 2016-cı ilin aprel döyüşlərində ordumuzun şanlı qələbəsinin, məhz görülən işlərin məntiqi nəticəsi olduğunu bildirib. O, Prezident seçkilərində hamılıqla seçkilərə gedəcəklərini və Cənab İlham Əliyevə səs verəcəklərini qeyd edib.

## Qax

Qax rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qum, Çinarlı, Süskənd, Fıstıqlı kəndlərinin seçicilərlə görüş keçirilib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Qax rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri iştirak ediblər. Təbliğat qrupunun üzvlərindən Əlövsət Bayramov,



Soltan Camalov seçicilər qarşısında çıxış edərək, indiyədək keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyasının parlaq qələbələrindən danışıb. Qeyd olunub ki, xalqımız Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasəti dəstəkləyir. Bildirilib ki, dövlət başçısının dövlətçiliyin müdafiəsi və inkişafı naminə atdığı hər bir addım vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Prezidentimiz İlham Əliyevin Azərbaycanın dövlətçilik maraqlarının beynəlxalq səviyyədə təmin edilməsinə yönələn uğurlu siyasəti ona beynəlxalq aləmdə də böyük nüfuz gətirir. Bu gün Azərbaycan vətəndaşı bilir ki, dövlət maraqları etibarlı bir Şəxsiyyət tərəfindən qorunur. Prezident Cənab İlham Əliyev Azərbaycan dövlətçiliyini daha çox inkişaf etdirəcəyinə və dövlət maraqlarımızı yüksək səviyyədə müdafiə edəcəyinə söz vermişdir və yürütdüyü siyasət ilə bunu parlaq şəkildə nümayiş etdirdi. Azərbaycan xalqının və dövlətinin maraqlarını, milli təhlükəsizliyini hər şeydən uca tutan bir Azərbaycan oğlu yalnız alqışlara layiqdir.

Tədbirdə çıxış edən kənd sakinlərindən Şamxalov Kamil, Novruzova Gülbahar, Məmmədov Bayram və başqaları, Cənab İlham Əliyevin siyasi kursunu dəstəklədiklərini bildirib və qeyd ediblər ki, 11 apreldə seçimləri, mövqeləri bəllidir, onlar yekdilliklə gələcəyə - İlham Əliyevə səs verəcəklər.

Ardı Səh. 5

www.sesqazeti.az
facebook Ses Media Holding
səs
23 mart 2018-ci il


# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-4

## QUSAR





Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin təbliğat-təşviqat qrupu 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun Samur qəsəbəsi, Şirvanovka, Kuf oba, Saləh oba və Qarat oba kənd seçiciləri ilə görüşlər keçirib.

Görüşlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsinin sədri David İbramxəlilov prezident seçkilərinin hər bir dövlətin həyatında mühüm siyasi hadisə olduğunu bildirərək, Azərbaycanda da bu gün mühüm bir proses yaşanıldığını vurğulayıb. O, YAP-ın namizədi Cənab İlham Əliyevin hazırda təbliğat kampaniyasının aparıldığını və son 15 ildə ölkə Prezidentinin məqsədyönlü siyasəti nəticəsində böyük uğurların əldə edildiyini qeyd edib: “Bu gün dinamik inkişaf edən ölkəmizin gücü və qüdrəti Cənab İlham Əliyev tərəfindən daha da möhkəmlənir. Azərbaycan dünyanın stabil dövlətlərindən birinə çevrilir”. D.İbramxəlilov səsvermə hüququna malik olan seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Rayon şöbəsinin sədr müavini Nadirşah Şirinov, Samur qəsəbə seçiciləri adından Yaşar Behbudov, Elnarə Ayibova, Şirvanovka kənd seçiciləri adından Nazir Mürsəlov və Şəkərxan Sultanov çıxış edərək, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində respublikamızın inkişafının sürətləndiyini və hər bir vətəndaş bunu öz sosial həyatında hiss etdiyini bildiriblər.

Görüşlərdə iştirak edən seçicilər, birmənalı olaraq, ən layiqli namizədə - İlham Əliyevə səs verəcəklərini əminliklə vurğulayıblar.

## OĞUZ





11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin təşviqat qrupunun üzvləri rayonun Qumlaq kəndində seçicilərlə görüş keçirib.

Tədbirlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri Saleh Məhərrəmov bildirib ki, son 15 ildə Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan siyasət artıq öz bəhrəsini verib: “Bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb.”

“Ötən 15 ildə ölkəmizin qazandığı uğurlara diqqət yetirsək, bu gün Azərbaycanın iqtisadi inkişafının hansı mərhələdə olduğunu görərik. Cənab İlham Əliyevin son illərdə gördüyü işlər prezident seçkilərində qələbəsini şəksiz edib”- deyən YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsinin sədri kəndlərdə insanların rifah halının yaxşılaşdırılması istiqamətində atılmış addımlardan söhbət açıb.

YAP Mərkəzi Seçki Qərargahı Oğuz rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Emin Əzimli, Nizami Əhmədov, İradə Məmmədova və başqaları vurğulayıblar ki, Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev siyasi kursunun uğurla davam etdirməsinin məntiqi nəticəsidir. Daha sonra çıxış edənlər bildiriblər ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda çox mükəmməl bir siyasət həyata keçirilir, mükəmməl dövlət idarəçiliyi modeli formalaşıb. Azərbaycan bu gün bütün dünyanın hesablaşdığı güclü bir dövlətdir. Natiqlər bu uğurların davamlılığı üçün oğuzluları Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Görüşdə Qumlaq kəndinin sakinlərindən Fəxrəddin Abbasov, Səfurə Salamova, Fərhad Kərimov və digərləri çıxış edərək, Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən, əhalinin sosial rifah halının yaxşılaşdırılmasından, ölkəmizdə və eləcə də, rayonda görülən işlərdən danışıblar. Seçicilər seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklərini vurğulayıblar.

## QUBA



11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam etdirilir. Dünən rayon şöbəsi qrafikə uyğun olaraq Xaltan, Qonaqkənd, Rük, Yerfi inzibati-ərazi dairələrində görüşlər keçirib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsinin sədri Yusif Abidov, təbliğat qrupunun üzvləri Həsən Günəşli, Hüseyn Kərimov və Əhməd Baloğlanov iştirak ediblər. YAP Quba rayon şöbəsinin sədri Y.Abidov çıxış edərək bildirib ki, hazırda ölkəmizdə mühüm bir siyasi hadisə yaşanır: “Bildiyiniz kimi, 11 aprel tarixində ölkəmizdə prezident seçkiləri keçiriləcək. Hazırda namizədlərin təbliğat kampaniyası davam etməkdədir. Ölkədə son illər əldə edilmiş nailiyyətlər göz önündədir. Azərbaycan bütün sahələr üzrə inkişaf edir. Bu inkişaf da Prezidentimizin məqsədyönlü siyasətinin məntiqi nəticəsidir. Ölkəmiz, nəinki regionda, bütün dünyada sürətlə inkişaf etməkdədir. Azərbaycan, eyni zamanda, nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib”.



Y.Abidov əminlik ifadə edib ki, qubalılar aprelin 11-də keçiriləcək prezident seçkilərinə inamlı qələbələrlə gedərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər. Daha sonra rayon Ağsaqqallar Şurasının sədri Həsən Günəşli və Qonaqkənd ilk partiya təşkilatının sədri Bəxtiyar Məstanov çıxış edərək prezident seçkilərində Azərbaycanın işıqlı gələcəyinə və partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Qobustan



Dünən Qobustan rayonunun Ərəbşahverdi kəndlində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin tərtib olunmuş qrafikinə uyğun olaraq, seçicilərlə görüş keçirilib.

Görüşdə YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev çıxış edərək bildirdi ki, Azərbaycan demokratik bir ölkədir, hər kəs sərbəst düşünmək və müstəqil seçim hüququna malikdir: “11 aprel 2018- ci il prezident seçkilərində bu hüququmuzdan istifadə edərək, seçki məntəqələrinə gəlib, layiqli namizədə səs verməklə Azərbaycanın uğurlu gələcəyinə səs vermiş olarıq. Çünki ötən 15 il ərzində ölkəmizdə həyata keçirilən uğurlu siyasət xalqımız tərəfindən birmənalı tərzdə dəstəklənir. Azərbaycan xalqı YAP-ın Sədri İlham Əliyevə dərin inam və etimad bəsləyir və qarşıdan gələn seçkilərdə fəal iştirak edərək, məhz onun namizədliyini dəstəkləyəcək”.

Görüşdə təbliğatçı Yusif Quliyev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılmış böyük uğurlardan, həyata keçirilən sosial layihələrdən respublikamızda və rayonumuzda görülən abadlıq işlərindən danışıb. Tədbirdə Ərəbşahverdi kənd sakinləri Baxşalı Məmmədov, Ağaverdi Abdulxalıqov, Ayatxan Allahverdiyev və digərləri çıxış edərək Cənab İlham Əliyevin başçılığı ilə qazanılmış uğurları və siyasəti dəstəkləyərək, 11 aprel 2018- ci ildə seçki məntəqələrinə gedərək, hamı bir nəfər kimi, bu siyasətin davamına - Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Ardı Səh. 6

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli-Səh-5

## Sabunçu







Yeni Azərbaycan Partiyasının “İlhamla İrəli” şüarı ilə başladığı seçki kampaniyası çərçivəsində dünən YAP Mərkəzi Seçki Qərargahının Sabunçu rayon şöbəsinin təşkilatçılığı ilə Maştağa Mədəniyyət Evində seçicilərlə görüş keçirildi.

Tədbirdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək bildirdi ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın milli maraqlarını, vətəndaşlarının mənafeyini müdafiə edib və onların sosial rifah halının daha da yaxşılaşdırılmasına nail olub: “Son on beş ildə Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində, müstəqil Azərbaycan sosial-iqtisadi və mədəni-mənəvi baxımdan sürətlə inkişaf edib, beynəlxalq aləmdə ölkəmizin strateji mövqeləri kifayət qədər möhkəmlənib, bölgədə və dünyada qüdrəti artıbdır. Həyata keçirilən irimiqyaslı infrastruktur layihələri, ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə uğurla ev sahibliyi etməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının reallaşması, demokratik idarəçilik mexanizmlərinin tətbiqi, vətəndaş cəmiyyətinin qurulması, hüquqi təsisatların bərqərar edilməsi inkişaf edən müasir Azərbaycanın reallıqlarına çevrilmişdir”.

Rayon təşkilatı sədri qeyd etdi ki, bütün bunların fonunda xalqımız prezident seçkilərinə özünün gələcək ümidlərinin reallışdırılması kimi baxır. Qarşıya qoyulan hədəflərə çatmaq, ərazi bütövlüyümüzün təmin olunması, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtması qarşıda duran vəzifələrimiz sırasındadır.

Məhz belə möhtəşəm uğurlara və gələcək hədəflərə görə, Sabunçu rayon seçiciləri 11 aprel prezident seçkilərində Yeni Azərbaycan Pariyasının namizədi Cənab İlham Əliyevi böyük səs çoxluğu ilə dəstəkləyəcəklər.

Tədbirdə çıxış edən YAP Sabunçu rayon təşkilatının idarə heyətinin üzvü Vahid Hacıyev Cənab İlham Əliyevin ölkəyə başçılıq etdiyi dövrdə görülmüş işləri və uğurları diqqətə çəkərək, güclü və inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin böyük gücə və nüfuza malik olduğunu bildirdi. Qeyd etdi ki, uzaqgörən, müdrik və qədirbilən xalqımız növbəti dəfə də mühüm və qəti seçiminin böyük bəhrəsini görəcək. Ölkənin hər bir vətəndaşı öz həyatında bu inkişafı hiss edir. Sabunçu rayon sakinləri də Prezident İlham Əliyevin siyasətini, birmənalı tərzdə dəstəkləyir. 11 aprel seçkiləri demokratik şəraitdə, şəffaf keçəcək və xalqımız bir daha Cənab İlham Əliyevə yüksək etimad göstərəcəkdir.

Daha sonra YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov və başqaları çıxış edərək 11 apreldə yekdilliklə seçiciləri daha uğurlu gələcək naminə YAP-ın namizədinə səs verməyə çağırdılar.

## Balakən





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsi aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qazma kəndində seçicilərlə görüş keçirib.

Görüşü Yeni Azərbaycan Partiyası Seçki Qərargahının sədri Azad Balayev açaraq 2003-2018-ci ildə Azərbaycanda gedən sosial inkişafdan, ordu quruculuğundan, daxili və xarici siyasətdən söz açaraq, 11 aprel 2018-ci il seçkilərində Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevi dəstəkləmək üçün seçicilərə çağırış etdi.

Tədbirdə çıxış edən kənd ağsaqqalı Mustafa Əliyev Prezident Cənab Əliyevin Balakənə səfərlərindən, Balakən-Qazma-Darvazbinə yolunun asfaltlaşmasından, ölkədə aparılan ordu quruculuğunun uğurlarından söhbət açdı. Çıxışının sonunda kənd ağsaqqalları adından Qazma kəndində olan seçiciləri seçki günü seçki məntəqələrinə gələrək, sabit və firavan həyatımızın davamlı olmasına səs verməyə çağırdı.

Qazma kəndinin ziyalıları Əkrəm Eminov, Rəşid Musayev və Xəlifə Mirəliyev çıxış edərək, Cənab Prezidentin Balakənə tarixi səfərlərindən, Onun bir qrup Balakən ziyalısı ilə görüşlərindən söhbət açıblar. Seçiciləri uğurlu gələcəyimizə, işıqlı sabahımıza, partiyanın layiqli namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

## İsmayıllı





Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının İsmayıllı rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Xankəndi, Sulut və Tağlabiyan kəndlərində seçicilərlə görüş keçirib.

Keçirilən tədbirləri giriş sözü ilə YAP İsmayıllı rayon təşkilatının idarə heyətinin üzvü Valeh Salehov açaraq qeyd edib ki, ölkə başçısı İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr sayəsində Azərbaycan dövləti öz iqtisadi nəticələri ilə aparıcı dövlətlər sırasındadır: “2003-cü ildən həyata keçirilən sosial-iqtisadi inkişaf siyasəti iqtisadi islahatların dərinləşdirilməsi, mövcud potensialın gücləndirilməsi və ondan istifadənin səmərəliliyinin yüksəldilməsi əsasında ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasına, bu sahədə artıq əldə olunmuş nailiyyətlərin daha da möhkəmləndirilməsi və artırılmasına xidmət etmişdir”. V.Salehov seçiciləri fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

YAP İsmayıllı rayon təşkilatının aparat rəhbəri Anar Nəbiyev çıxışında qeyd edib ki, Ümummilli Liderin iqtisadi strategiyasının “Biz Azərbaycanı güclü dövlətə çevirməliyik. Bu vəzifə bir müddət əvvəl qarşıya qoyulmuşdur və biz bu məqsədə doğru irəliləyirik. Azərbaycanda aparılan iqtisadi islahatlar öz səmərəsini verməkdədir...” söyləyən Cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq, Azərbaycan dövləti müstəqilliyin möhkəmləndirilməsi, ölkədə tarazlı və davamlı inkişafın təmin edilməsi istiqamətində atdığı addımlar və əldə edilən iqtisadi uğurları ilə dünyanın aparıcı dövlətinə, eləcə də, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmişdir.

Daha sonra çıxış edən kənd sakinləri Abdulov Bəhruz, Rəhmanov Şərif, Mamedov Fariz və başqaları çıxış edərək, qeyd ediblər ki, ismayıllılar həmişə dövlətə, dövlətçiliyə sədaqətləri ilə fərqlənmişlər. Bundan sonra da onlar respublikamızda hökm sürən ictimai - siyasi sabitliyi, iqtisadi yüksəlişi, hakimiyyətlə xalq arasındakı vəhdəti, Ümummilli Lider Heydər Əliyev irsini uğurla davam etdirən Cənab Prezident İlham Əliyevi dəstəkləyəcəklər.

## Suraxanı



Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Suraxanı rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində Hövsan Nord Mədəniyyət Evinin qarşısında 5000 nəfərdən çox seçici ilə görüş keçirib. Tədbiri giriş sözü ilə YAP Suraxanı rayon şöbəsinin sədri Vüqar Seyidov açaraq bildirib ki, 2003-2018-ci illər ərzində ölkə başçısı, YAP-ın Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bir çox işlər görülmüş, tarixi nailiyyətlər əldə edilmişdir.

*Ardı Səh. 7*




# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-6



Ulu Öndər Heydər Əliyevin yolu Prezident İlham Əliyev tərəfindən ləyaqətlə davam etdirilmiş, müstəqil Azərbaycan inkişafda olan ölkələr arasında öz yerini möhkəmlətmişdir. V.Seyidov dövlətin Suraxanı rayonuna olan qayğısından geniş danışaraq bildirib ki, Cənab İlham Əliyev 15 il ərzində 30 dəfədən çox Suraxanıda olmuş, bir çox tədbirlərin açılışında şəxsən iştirak etmişdir. V.Seyidov Suraxanı seçicilərini 11 apreldə fəal olmağa, patiyamızın alternativsiz liderinə - Cənab İlham Əliyevə dəstək olmağa səsləyib.

Milli Məclisin deputatları Sevinc Fətəliyeva və Ağacan Abıyev son illərdə ölkəmizdə gedən abadlıq-quruculuq işlərindən, xalqın sosial rifahına yönəldilmiş lahiyələrdən, beynəlxalq səviyyədə ölkəmizin artan nüfuzundan, ordu quruculuğundan, iqtisadi yüksəlişindən, dayanıqlı inkişafından söhbət açaraq, seçicilərə bir daha bu nailiyyətlərin asan yolla əldə olunmadığını çatdırıb, gələcəyimizin yeni qələbələrə və uğurlara imza atması üçün YAP-ın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar. Tədbirdə "Ruslan" MMC hüquq firmasının direktoru, Suraxanı sakini Loğman Abdullayev hər bir vətəndaşın seçmək hüququ olduğunu və bu hüququdan səmərəli istifadə etməsini tövsiyə edib, eyni zamanda, ən layiqli namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıb. Suraxanı rayon qadınları adından çıxış edən, 20 Yanvar şəhid ailəsi Şövkət Xanməmmədova sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan, insanlara olan qayğıdan söhbət açıb və ən layiqli namizədin ətrafında sıx birləşməyə çağırıb.

Gənclər adından çıxış edən Arzu Həsənzadə gənclərin dostu, gənclər siyasətinin ölkədə, dövlət siyasəti səviyyəsində inkişafına rəvac verən Cənab İlham Əliyevə bütün gəncləri səs verməyə dəvət edib.

Həmçinin, görüşdə çıxış edən Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, Əməkdar məşqçi, Suraxanı rayon sakini Hicran Şərifov son 15 ildə ölkəmizin idman tarixindəki uğurlardan danışıb və bu uğurların yeganə təminatçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

## Nərimanov



Aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatında Nərimanov rayon Ağsaqqallar Şurasının üzvləri ilə görüş keçirilib. Tədbiri YAP Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev açaraq, Yeni Azərbaycan Partiyasının namizədi, Prezident İlham Əliyevin apardığı ardıcıl və sistemli islahatlar, həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin son illərdə - istər regionda, istərsə də bütün dünyada qazandığı uğurlardan danışıb: "Müstəqil Azərbaycanın inkişafında müstəsna xidmətləri olan Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi inkişaf yolu nəticə etibarı ilə partiyanın monolit birliyinin, böyük sosial bazasının formalaşmasına kifayət qədər zəmin yaratdı." T.Tağıyev, həmçinin bildirib ki,



Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasına daim etibar edir və dəstəkləyir: "Bütün uğurların davamlı olması üçün hər kəsi 11 aprel seçkilərində partiyamızın Sədri İlham Əliyev Cənablarına səs verməyə çağırıram".

Daha sonra Nərimanov rayon Ağsaqqallar Şurasının sədri Mircəfər Həsənov çıxış edərək, bildirib ki, hər zaman olduğu kimi, bu seçki prosesində də Ağsaqqallar Şurası fəal iştirak edəcək və partiya tərəfindən irəli sürülmüş namizədi dəstəkləyəcək.

Rayon Ağsaqqallar Şurasının üzvü Kamil Babayev, YAP Nərimanov rayon təşkilatının sədr müavini Vaqif Novruzov, şairə Mərcan Şahbuzlu və digərləri çıxış edərək bildiriblər ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıb və YAP Cənab İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verməkdədir. "Bütün bunlar da xalqımızın partiyamızı dəstəkləyəcəyinə və onun namizədi Cənab İlham Əliyevə səs verəcəyinə təminat verir"-deyə çıxışçılar vurğulayıblar.

## Nəsimi






Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək Prezident seçkilərinə həsr edilmiş gənclərin açıq havada "İLHAMLA İRƏLİ" mitinqi keçirildi. Mitinqdə 1500-dən çox gənc iştirak edirdi. Bakının bir çox rayonlarının, eyni zamanda, Nizami rayonunun çoxsaylı gəncləri iştirak edirdi.

Gənclər bu tədbirdə qarşıdakı 7 il üçün daha güclü və qüdrətli Azərbaycan naminə bütün ölkə gəncliyinə İLHAMLA İRƏLİ səslənərək, 11 aprel 2018-ci ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevin namizədliyinin dəstəklənməsi üçün çağırış etdilər.

Musiqili-əyləncəli proqramla davam edən bu təbliğat tədbirində gənclər öz liderlərinə sevgi, etimad və inamlarının rəmzi kimi canlı, açıq havada İLHAMLA İRƏLİ flaşmobunu hazırladılar.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbətlik etdiyi dövr ərzində əldə edilən uğurları, daxili və xarici siyasəti, qeyri-neft sektorunun inkişafının əhəmiyyətini diqqətə çatdıraraq, ölkə başçısının gənclərə böyük qayğı göstərdiyini vurğuladı. M.İbrahimqızı gəncləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırdı.

## Qəbələ





Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatı tərəfindən təsdiq olunmuş qrafikə uyğun olaraq, 116 saylı Qəbələ seçki dairəsinin, 42 saylı Kürd seçki məntəqəsinin və 117 saylı Oğuz-Qəbələ seçki dirəsinin 49 saylı Həmzəli kənd seçki məntəqəsinin ərazisində seçicilərlə görüş keçirilib. Görüşlərdə, Qaradeyn, Xırxatala və Cığatelli kəndindən, ümumilikdə 535 nəfər seçici iştirak edib. Tədbir böyük ruh yüksəkliyi ilə təşkil edilib.

Seçicilərlə keçirilən bu tədbirlərdə YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğatçılardan Abil Ağasəfov, Qüdrət Səmədov, Arifə Bayramova və Ümüdvar Həsənov seçicilər qarşısında Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevin seçki proqramı ətrafında geniş çıxış ediblər, ölkəmizin daxili və xarici siyasətindən, eləcə də gələcəkdə həyata keçiriləcək işlərdən danışıblar.

Görüşlər zamanı seçicilər birmənalı olaraq cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Xaçmaz




11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatı Müqtədir qəsəbə seçiciləri ilə görüş keçirmişdir.

Ardı Səh. 8

səs
www.sesqazeti.az
facebook Ses Media Holding

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-7



Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq prezident seçkilərinin demokratik, şəffaf keçirilməsinin əhəmiyyətindən, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin 2003-2018- ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından və digər məsələlər haqqında seçiçilərə geniş məlumat vermişdir.

Tədbirdə Milli Məclisin deputatı Eldəniz Səlimov qəsəbə sakinləri Məculla Nurullayev, Məzahir Yəhyayev, Aygün Osmanova çıxış edərək, Möhtərəm Prezidentimiz ətrafında sıx birləşdiklərini qeyd etməklə, seçki günündə bir nəfər kimi, seçki məntəqələrinə gələrək partiyamızın yeganə namizədi olan İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildirdilər. Onlar Cənab İlham Əliyevə səs verməklə ölkəmizin gələcək inkişafına, stabilliyin dayanıqlı olmasına və gələcək xoş günlərinə səs verəcəklərini bildirdilər.

## Yevlax




Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Yevlax rayon şöbəsinin təşviqat qrupu üzvləri Yevlax rayonunun Aşağı Bucaq və Yuxarı Bucaq kəndlərində seçicilərlə görüş keçirdilər. Tədbiri giriş sözü ilə YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev açaraq qarşıdan gələn prezident seçkiləri haqqında məlumat verərək seçki günü hər bir seçicinin seçkiyə gəlməyinin vacibliyini vurğuladı: "Mən inanıram ki, hər bir yevlaxlı seçici öz seçki hüququndan istifadə edərək Yeni Azərbaycan Partiyasının namizədi, xalqın sevimlisi İlham Əliyev Cənablarına səs verəcəkdir".

Görüşdə Yevlax Ağsaqqallar Şurasının sədri Kinyaz Əliyev çıxış edərək vurğuladı ki, xalq Cənab İlham Əliyevi özünün böyük dövlət xadimi hesab edir və bu seçkilərdə məhz Ona səs verəcəkdir: "Biz azərbaycanlı olaraq fəxr edirik ki, hər bir azərbaycanlının Prezidenti olan Cənab İlham Əliyev yenidən Prezident seçiləcəkdir".

Sonra çıxış edən YAP Yevlax rayon təşkilatı qadınlar şurasının sədri Əminə Əhmədova, kənd sakinləri Raquf Musayev və Kəmalə Musayeva bildiriblər ki biz artıq öz seçimimizi etmişik: "Azərbaycanı işıqlı gələcəyə doğru aparan Möhtərəm Prezidentimizin gördüyü işlər və həyata keçirdiyi uğurlu inkişaf proqramı danılmazdır. Ona görə də, biz hamılıqla 11 apreldə Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəyik".

## Cəlilabad



Dünən Cənab İlham Əliyevin təbliğat-təşviqat tədbirləri çərçivəsində Cəlilabad rayonunun Cəlayir, Sabirabad və Təklə kəndlərində seçicilərlə görüşlər keçirilib.

Cəlayir kəndində keçirilən görüşü YAP Cəlilabad rayon təşkilatının şura üzvü Yaşar Vəliyev açaraq, rayonun yaşayış məntəqələrində seçicilərlə böyük ruh yüksəkliyi şəraitində keçirilən görüşlər barədə məlumat verib, İlham Əliyev Cənablarının ölkə rəhbəri olduğu 15 ilə yaxın müddətdə Azərbaycanda gedən hərtərəfli inkişaf barədə ətraflı danışıb. Y.Vəliyev Cənab İlham Əliyevin dünyada yaxşı tanındığını, ölkəmizin hərtərəfli inkişafında Onun böyük rolu, diqqət və qayğısını xüsusi vurğulayıb. O, seçiciləri 11 aprel 2018-ci ildə keçirilən seçkilərdə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə çıxış edən təqaüdçülər Bəhrəmxan Rəhimov və Mərifət Mirzəyev, gənc müəllim Fariz Rzayev, torpaq mülkiyyətçisi Sahibəli Seyfullayev, ərazi ilk partiya təşkilatının sədri Əlisehran Rzayev, həkim Malik Əliyev və başqaları Cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyəndiklərini qeyd etməklə, Azərbaycan xalqına göstərdiyi diqqət və qayğıya görə, öz minnətdarlıqlarını bildirmiş, ərazinin bütün seçicilərinin iradəsini ifadə edərək, keçiriləcək prezident seçkilərində 11 aprel 2018-ci ildə Cənab İlham Əliyevə səs verəcəklərini qeyd ediblər.

Təklə kəndində seçicilərlə keçirilən görüşdə YAP rayon təşkilatının idarə heyətinin üzvü Baxış Mustafayev və rayon təşkilatının şura üzvü Cahangir Muradov iştirak ediblər. Seçicilərlə görüşü açıq elan edən Baxış Mustafayev Cənab İlham Əliyevin ölkə rəhbəri olduğu dövrdə bütün sahələrdə inkişafa nail olunduğu, beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun xeyli artdığı , əhalinin əmək haqqı və təqaüdlərinin ilbəil artırıldığı, müntəzəm olaraq ayrı-ayrı sahələrdə islahatlar həyata keçirilməsi və digər məsələlər barədə seçicilərə geniş məlumat verilmiş, bütün seçiciləri 11 aprel 2018-ci ildə keçirilən seçkilərdə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbir iştirakçılarından kənd ağsaqqalı Ağahüseyn Hüseynov, təhsil işçiləri Hazarxan Ağayev, Qəzənfər Feyziyev, Famil Mahmudov və torpaq mülkiyyətçisi Eldar Kərimov və başqaları çıxış edərək Cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyəndiklərini və seçkilərdə yekdilliklə Ona səs verəcəklərini bildiriblər.

Sabirabad kəndində seçicilərlə keçirilən görüşü YAP Cəlilabad rayon təşkilatı idarə heyətinin üzvü Xudayar Sultanlı açaraq, seçiciləri Novruz bayramı münasibətilə səmimi təbrik edib, tədbirin məram və məqsədlərini iştirakçıların diqqətinə çatdıraraq, 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə bağlı seçicilərə geniş məlumat verib. O, Cənab İlham Əliyevin həyat və fəaliyyəti, ölkə başçısı olduğu müddətdə gördüyü işlər və həyata keçirdiyi çoxşaxəli tədbirlər, Azərbaycanın böyük inkişafı, hərbi qüdrətinin artması, bütün dünyada tanınması, Cənab İlham Əliyevin, sözün həqiqi mənasında, bütün Azərbaycan vətəndaşlarının Prezidenti olması və digər məsələlər haqqında seçiciləri məlumatlandırmış, əmin olduğunu bildirmişdir ki,ərazinin bütün seçiciləri 11 aprel 2018-ci ildə keçiriləcək seçkilərdə Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə çıxış edən kənd sakini, aprel döyüşçüsünün atası Mehman Məmmədov, kənd sakini Mustafa İbrahimov, təhsil işçiləri Haqverdi Nuriyev, Azad Cəfərov, Əliağa Ələkbərov, bağça müdiri Rahilə Əsgərova, ağsaqqal Ərəb Abasov və başqaları Cənab İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirib, 11 aprel 2018-cildə keçiriləcək seçkilərdə prezidentliyə namizəd Cənab İlham Əliyevə yekdilliklə səs verəcəklərini bəyan ediblər.





## Kürdəmir

Dünən YAP Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri rayonun Çöhranlı, Yeni Şıxımlı kəndlərində, Dəyirman Kombinatında seçicilərlə görüş keçirib. Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağali Kərimli çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, infrastruktur layihələrinin əhəmiyyətindən danışıb. "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə qazandığı sabit, demokratik ölkə imicini daha da möhkəmləndirir"-deyə qeyd edən natiq əlavə edib ki, böyük sürətlə və hərtərəfli şəkildə inkişafını davam etdirən müstəqil Azərbaycan dövləti dünya birliyində xüsusi çəkiyə malik əhəmiyyətli ölkədir. Nəinki regionun, ümumiyyətlə, qlobal mənada dünyanın ən müxtəlif problemlərinin həllində Azərbaycan Respublikası mötəbər söz sahibidir: "Son 15 ildə görülən işlər, imzalanan fərman və sərəncamlar, müxtəlif sahələri əhatə edən proqramlar Cənab İlham Əliyevin hər bir vədinin arxasında konkret əməli işin dayandığını təsdiqləyir. Ona görə də, 11 apreldə hər birimiz seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasnın namizədi Cənab Prezident İlham Əliyevi dəstəkləməklə Azərbaycanımızın daha da gücləlnməsinə səs verməliyik".

Tədbirdə çıxış edən təbliğat qrupunun üzvləri Sabir Novruzov, Talıb Məmmədov, Elmira Süleymanova, Valeh Qaraşov da Azərbaycan dövlətinin son 15 ildə atdığı uğurlu addımlardan danışaraq, prezident seçkilərinin demokratiya yolunda növbəti addım olacağını bildirdilər.

Seçicilərdən Nurəddin Nəsibov, Allahverdi Hacıyev, Rahim Nuğayev rayonda kənddə həyata keçirilən quruculuq işlərindən, ölkəmizdə gedən dinamik inkişafdan danışaraq, Cənab İlham Əliyevin prezident seçkilərində ən real namizəd olduğunu bildiriblər və xüsusilə, vurğulayıblar ki, kürdəmirlilər hər zaman Prezidentin siyasətini dəstəkləyib və aprelin 11-də bir daha bu dəstəyi göstərərək, Azərbaycanın daha böyük zirvələri fəth etməsinə zəmin yaradacaqlar.

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Şəmkir





YAP Şəmkir rayon təşkilatı prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüşünü rayonun Sabirkənd kəndində keçirib. Görüşdə seçicilər qarşısında çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Şəmkir rayon şöbəsinin sədri Fəxrəddin Vəliyev YAP-ın namizədi Cənab İlham Əliyevin zəngin həyat yolundan, Onun Azərbaycan dövlətçiliyi üçün həyata keçirdiyi misilsiz xidmətlərdən, həmçinin, rayonda görülən quruculuq-abadlıq işlərindən danışıblar.

F.Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ötən 15 il ərzində bütün sahələrdə uğurlar əldə edib. "Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinin ən effektiv nəticələrindən biri Azərbaycanın mütəmadi səciyyə daşıyan dinamik iqtisadi inkişafıdır"-deyə qeyd edən F.Vəliyev onu da bildirib ki, atılan hər bir addım xalqın rifahına hesablanıb: "Məhz bu inkişafın nəticəsidir ki, əhalinin təqaüdləri, maaşları ilbəil artırılır və bu da insanların firavan yaşamasına və sosial rifahının artmasına gətirib çıxarır".

Görüşdə çıxış edən digər natiqlər də prezidentliyə namizəd Cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət kursu, həmçinin, torpaqlarımızın işğaldan azad olunması istiqamətində aparılan işlər barədə danışıb, aprelin 11-də keçiriləcək prezident seçkilərində seçiciləri fəallıq göstərməyə çağırıblar.

## Biləsuvar



11 aprel 2018-ci ildə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının təbliğat qrupu Biləsuvar rayonu Nəsimi kəndində seçicilərlə görüş keçirib. Görüşdə YAP Biləsuvar rayon təşkilatı təbliğat qrupunun üzvü Əjdər Niftiyev Yeni Azərbaycan Partiyasının namizədi, ölkə Prezidenti Cənab İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi məsələlərdən ətraflı danışaraq qeyd edib ki, 15 ilə yaxın bir müddət ərzində, Cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sferalarda dinamik inkişafa nail olunub. "Azərbaycan əhalisinin yaşa-



yış səviyyəsi günü-gündən yüksəlib"-deyə vurğulayan natiq seçiciləri Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə təbliğat qrupunun üzvü Nadir Əliyev ölkə rəhbərinin həyata keçirdiyi sosial islahatlardan söz açaraq, bildirib ki, məhz bu kimi uğurlu siyasət nəticəsində, xalqımızın daha firavan gələcəyi təmin olunub, bundan sonra da olunacaq.

Seçicilərdən Qələmxan Novruzov, Xudayar Kərimov, Şakir Ağayev və başqaları çıxış edərək, bildirdilər ki, 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində biləsuvarlılar, Cənab İlham Əliyevə səs verəcəklər.

## Qobustan

Dünən Qobustan rayonunun Qurbançı kəndində Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qobustan rayon şöbəsinin seçicilərlə görüşü keçirilib. Görüşü YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev açaraq, Prezident İlham Əliyevin 15 illik fəaliyyəti ilə bağlı məlumat verib, sosial-iqtisadi inkişafdan, siyasi sabitlikdən Ulu Öndər Heydər Əliyev dühasından bəhrələnən bugünkü qüdrətli Azərbaycandan, sabahkı firavan gələcəyimizə hesablanan ardıcıl siyasətdən danışıb. Füzuli Gülaliyev regionların sosial-iqtisadi inkişafından, Qobustan rayonunun günü-gündən böyüməsindən, abadlaşmasından, regionda füsunkar abad guşələrdən birinə çevrilməsindən söz açıb. Rayonun susuzluq problemi olan kəndlərinə su xətləri çəkilişindən, kanalizasiya sisteminin istifadəyə verilməsindən, bütün kəndlərdə qazlaşma işlərinin başa çatmaq üzrə olmasından bəhs edən F.Gülaliyev parkların, meydanların, yeni inzibati binaların, uşaq bağçalarının, məktəblərin, yeni yolların istismara veriilməsini dövlət başçımızın regionlara, eləcə də, Qobustan rayonuna olan diqqət və qayğısının nəticəsi kimi qiymətləndirib.

Görüşdə çıxış edən təbliğatçı Yusif Quliyev Azərbaycan xalqını bəlalardan hifz edənin, məhz Cənab İlham Əliyev olduğunu vurğulayıb və əminliklə bildirib ki, xalqımız belə bir qətiyyətli lideri yenidən ölkəyə rəhbər seçəcəkdir.

YAP fəallarından Ənvər Əsədov çıxış edərək, qobustanlıları bu seçkidə də düzgün seçim etməklə Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Görüşlərdə çıxış edən Səftərov Cəmşid, Vəliyev Rafiq, İsgəndərov Ağasəf və digərləri, birmənalı tərzdə bildirdilər ki, 11 aprel 2018- ci ildə keçiriləcək prezident seçkilərində seçki məntəqələrinə gələrək güclü dövlət, xoşbəxt gələcək naminə Cənab İlham Əliyevə səs verəcəklər.

## Şamaxı



Dünən YAP Şamaxı rayon təşkilatı qrafikə əsasən Ovculu, Hacıqədirli və Meysəri kəndlərində seçicilərlə görüş keçirib. Tədbiri giriş sözü ilə qərargah üzvü Eyvaz Eminaliyev açıb. Sonra qərargah üzvləri Ağarza Bayramov, Tünzalə Yusifova, Nəzakət Abdulrazaqova, Səməd Fətəliyev, Namik Rzazadə, Şahmar Hüseynov seçicilərin suallarına



cavab verərək cıxış ediblər. Keçirilən görüşlər, ümumilikdə 27, 28 və 36 saylı məntəqələrdə qeydiyyatda olan 400-dən yuxarı seçicini əhatə edib. Görüşlərdə seçicilər İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Ağstafa

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə



əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin seçkiöncəsi təbliğat və təşviqat kampaniyası çərçivəsində Ağstafa rayonu, Vurğun qəsəbə və Həsənsu kəndində seçicilərlə görüş keçirilib. Görüşdə partiyanın Mərkəzi Seçki Qərargahının Ağstafa rayon şöbəsinin sədri Ramiz Tatarov və təbliğat qrupunun üzvü Saqif Ələkbərov iştirak ediblər. Seçicilərlə görüşü giriş sözü ilə R.Tatarov açaraq, öncə tədbir iştirakçılarını Novruz bayramı münasibətilə təbrik edib, hər kəsə öz işlərində uğurlar və müvəffəqiyyətlər arzulayıb. R.Tatarov bildirib ki, prezidentliyə namizəd Cənab İlham Əliyev ötən seçkilərdən bu günədək, mütəmadi olaraq və yüksək intensivlik şəraitində, Azərbaycanın bütün regionlarını gəzib, insanlarla görüşlər keçirib və onları dinləyib. "Həmin görüşlərin və söhbətlərin uğurlu nəticələri bir qayda olaraq, regionun inkişafına dair yeni proqramların qəbul olunması ilə özünü göstərib"-deyə qeyd edən R.Tatarov bu dəfə də seçicilərin İlham Əliyev Cənablarına səs verəcəklərini əminliklə vurğulayıb: "Həmişə olduğu kimi, indi də Cənab İlham Əliyevin seçki kampaniyası yüksək fəallıq şəraitində keçəcək. Xalqın böyük əksəriyyətinin dəstəyi və Cənab İlham Əliyevə olan dərin inamı seçki kampaniyasının ən mühüm üstünlüyü kimi yadda qalacaq".

## Astara



11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Astara rayon təşkilatının təbliğat-təşviqat qrupunun üzvləri dünən Astara rayonunun Kakalos kəndində Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevə dəstək məqsədi ilə seçicilərlə görüş keçiriblər.

*Ardı Səh. 10*

# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli-Səh-9



Tədbiri giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq ölkəmizin inkişaf və tərəqqisinin davamlı xarakter aldığını deyərək, əldə edilən siyasi-iqtisadi və digər sahələrdəki uğurların təməlində Cənab İlham Əliyevin mütərəqqi siyasətinin dayandığını vurğulayıb. "Hər bir inkişaf faktoru, bilavasitə Azərbaycan xalqının rifahına xidmət edir və ölkə başçımızın da məqsədi qarşıda dayanan daha əhəmiyyətli məsələləri həll etmək, Azərbaycanın adının beynəlxalq aləmdə yüksəkdə saxlamaq və sair amillərdir"-deyə qeyd edən F.Əhmədov hər bir seçicinin bu amallara çatması üçün Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəyinə əmin olduğunu vurğulayıb.

Tədbirdə iştirak edən Kakalos kəndinin sakinləri də, birmənalı tərzdə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Zərdab





2018-ci ilin 11 aprel tarixində Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı, Yeni Azərbaycan Partiyasının tədbirlər planına uyğun olaraq, Zərdab rayonunun bütün yerli strukturları təbliğat-təşviqat işlərini uğurla davam etdirməkdədirlər. Partiyanın Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri martın 19-da Zərdabda "İlhamla İrəli!" şüarı ilə təbliğat kampaniyasına start verib. Mart ayının 22-də rayonun Bıçaqçı, Yuxarı Seyidlər və Siləyli kəndlərindən olan seçicilərlə görüş keçirilib.

Tədbirlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin və rayon təşkilatının sədri Pərvin Mahmudova bildirib ki, son 15 il ərzində Azərbaycan böyük və şərəfli yol keçib. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atıb. "Hazırda Azərbaycanın beynəlxalq nüfuzu durmadan artır, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir"-deyə qeyd edən P.Mahmudova bildirib ki, bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir: "Ölkəmizdə təhlükəsizlik və sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir. İnanırıq ki, ölkəmizin inkişafı, insanlarımızın rifahının yaxşılaşması naminə "İlhamla İrəli" devizi altında 15 il ölkəmizə xidmət göstərmiş bu proqramın bundan sonra da davam etdirilməsi, dövlətimizin qüdrətinin və əzəmətinin artırılması məqsədilə seçicilərimiz bu proqramı dəstəkləyəcək, növbəti 7 ildə də onun uğurla həyata keçirilməsi və Azərbaycanın tərəqqisi naminə layiqli namizədə - Cənab İlham Əliyevə səs verəcəklər".

Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Zərdab rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri Gülağa İsgəndərov, Cəvahir İsmayılova, Ziyad Xancanov, Nailə Əliyeva, Məkkə Həmidova çıxış edərək ölkəmizin əldə etdiyi uğurlardan söhbət açaraq, seçiciləri bütün bu nailiyyətlərin, qələbələrin təminatçısı və qarantı olan Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Sonda hər üç kənddən olan seçicilərin nümayəndələri mütəşəkkil qaydada partiyamızın namizədini dəstəklədiklərini vurğulayaraq, seçkilərdə Ona səs verəcəklərini bildiriblər.

## Tərtər






11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Heydər oğlu Əliyevin seçki-təşviqat kampaniyası çərçivəsində dünən Tərtər rayonunun Kəbirli-Bayandur kəndlərində 375 nəfər seçicinin iştirakı ilə görüş keçirilib.

Tədbiri YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov açaraq Yeni Azərbaycan Partiyasının namizədi, Prezident İlham Əliyevin 2003-2018-ci illərdə ölkəyə başçılıq etdiyi müddətdə Azərbaycanın bütün sahələr üzrə sürətli inkişaf yolu keçdiyindən, bu gün Vətənimizin dünayda sayılıb-seçilən ölkələrlə bir sırada qərarlaşmasından, əhalinin sosial-rifah halının yaxşılaşdırılması istiqamətində atılan qətiyyətli addımlardan, ölkənin siyasi, iqtisadi, mədəni və sosial sahələrində aparılan islahatlardan danışıb.

R.Şabanov çıxışında, bir daha vurğulayıb ki, hal-hazırda dünyanın ölkə başçıları arasında az-az şəxslər var ki, onlar eyni zamanda, liderlik səviyyəsinə yüksəliblər. "Azərbaycan xalqı fəxr edir ki, onun Prezidenti, Ulu Öndərin layiqli davamçısı Cənab İlham Əliyev gənc yaşından liderlik nüfuzunu və adını qazanıb"-deyə vurğulayan R.Şabanov, həmçinin, onu da bildirib ki, məhz Prezidentin fəaliyyəti nəticəsində ölkəmiz hərtərəfli inkişaf edərək, bu gün rəqabətə davamlılıq dərəcəsinə görə, dünya ölkələri arasında 35-ci yerdə qərarlaşıb: "Bütün bunlar Cənab İlham Əliyevin titanik fəaliyyəti ilə bağlıdır. Azərbaycan dünyada sabitlik adasının mövcud olduğu diyara çevrilib. R.Şabanov, əmin olduğunu bildirdi ki, seçicilərimiz builki prezident seçkilərində də haqqa, ədalətə, inkişafa, YAP-ın namizədi Hörmətli İlham Heydər oğlu Əliyevə səs verəcəklər.

Seçki-təşviqat kampaniyası ilə əlaqədar keçirilən tədbirdə rayon Ağsaqqallar Şurasının sədri Qədir Allahverdiyev, Kəbirli kənd sakinləri, Raqub Məmmədov, Aybəniz Məmmədova, Bayandur kənd sakinləri, Rafiq Səfərov, Zakir Bayramov və Ziyəddin Məmmədov çıxış edərək, əminliklə qeyd ediblər ki, Tərtər rayonunun sakinləri Ulu Öndər Heydər Əliyev siyasətinin davamına - Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə səs verəcəklər.

## Masallı





11 aprel 2018-ci il tarixdə keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Masallı rayonunun Mahmudavar kəndində seçicilərlə görüş keçirilib. Tədbir iştirakçıları, ilk öncə Mahmudavar kəndinin mərkəzində Ulu Öndər Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəsi önünə tər gül dəstələri düzüblər.

Tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq qeyd edib ki, Azərbaycanın son illərdə əldə etdiyi uğurlar, yüksək nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının, bilavasitə fəaliyyəti ilə bağlıdır: "Prezident İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən başlayaraq, həyata keçirilən siyasətin nəticəsi kimi, 15 il ərzində Azərbaycan sözün həqiqi mənasında, möhtəşəm inkişaf mərhələsi keçib".

Prezident təqaüdçüsü Şirvan Əbilov çıxış edərək bildirib ki, Azərbaycan qarşıdan gələn prezident seçkilərinə hazırlaşır və bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da seçki mühitini ölkənin son illər ərzindəki inkişafı və bu inkişafın formalaşdırdığı ab-hava müəyyənləşdirir: "Bu gün ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür və bu sabitlik Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin məqsədyönlü siyasətinin bariz nümunəsidir".

Ş.Əbilov seçiciləri qarşıdan gələn Prezident seçkilərində fəal olmağa, öz gələcəkləri naminə partiyamızın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Sonra Mahmudavar kənd sakini Qumru Əhmədov çıxış edərək Cənab İlham Əliyevin Azərbaycan xalqına göstərdiyi diqqət və qayğıdan söz açaraq budəfəki seçkilərdə də YAP-ın qələbəsinə əmin olduğunu bildirib.

# Xalqın alternativsiz lideri olan İlham Əliyev yeni inkişaf mərhələsinin banisidir



## Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi

**- Bəxtiyar müəllim, prezident seçkilərinə bir aydan da az vaxt qalır. Seçki kampaniyasının gedişatı barədə nə deyə bilərsiniz?**

- Hər bir demokratik ölkədə vətəndaşların cəmiyyətin ictimai-siyasi həyatında, dövlət işlərində iştirakının ən kütləvi forması seçkilərdir. Adətən vətəndaşlar dövlətin idarə edilməsində iştirak hüquqlarını əsas etibarilə seçki vasitəsilə reallaşdırırlar. Seçkilərin əsas şərti isə ədalət, aşkarlıq, şəffaflıq və obyektivlikdir. Demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna sadiqliyini bəyan etmiş Azərbaycan xalqı da legitim, qanuni hakimiyyətin formalaşdırılmasının yeganə yolunu məhz demokratik seçkilərdə görür.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2018-ci il tarixli sərəncamı ilə prezident seçkiləri bu il aprel ayının 11-nə təyin edilib. Artıq Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planını təsdiqləyib. Bu plana uyğun olaraq əsas hərəkət və tədbirlər davam edir. Artıq namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi mərhələsi başa çatıb, seçici siyahıları dəqiqləşdirilib. Həmçinin bir sıra KİV-lər ödənişli seçkiqabağı təşviqata qoşulmaları ilə bağlı MSK-ya məlumatlarını təqdim ediblər. O cümlədən, "Azərbaycan" qəzeti qanuvericiliyə əsasən öz səhifələrində namizədlər üçün həm ödənişsiz, həm də ödənişli yer ayırır.

İstənilən seçkilərin ədalətli, təmiz və şəffaf həyata keçirilməsi həmin ölkədə cəmiyyətin demokratik mühitinin yüksək olması mənasını verir. Azərbaycanda vətəndaşların seçki hüquqları yüksək səviyyədə təmin olunur. Seçkilərin azad və sərbəst şəkildə həyata keçirilməsi məqsədilə müasir tələblərə uyğun qanunvericilik bazası da mövcuddur. Bununla yanaşı, seçkilərin keçirilməsi üçün lazımi şərait yaradılıb, seçki komissiyaları müasir texniki avadanlıqlarla təchiz edilib. Bu mənada qarşıdan gələn prezident seçkiləri bütün müasir və demokratik standartlara uyğun keçiriləcək.

**- Prezident seçkiləri ərəfəsində ölkəmizdəki siyasi-ictimai, sosial-iqtisadi vəziyyəti necə dəyərləndirərdiniz?**

- Artıq neçə onilliklərdir ki, planetin müxtəlif yerlərində müxtəlif səbəbləri olan münaqişələr, müharibələr hökm sürür. Bunlardan başa çatanı olsa da, bir başqa yerdə yeni müharibə ocağı yaranır. Nəticə etibarilə bütün müharibələr xalqların taleyində dərin iz buraxır, ona ağır maddi və mənəvi zərbə vurur, məhrumiyyətlərə düçar edir.

Lakin dünyada cərəyan edən iqtisadi böhranlara, qlobal siyasi və sosial kataklizmlərə baxmayaraq, Azərbaycan bu coğrafiyanın "sabitlik adası" və inkişaf ünvanı kimi qalmaqdadır. Respublikamız siyasi, sosial-iqtisadi və digər sahələrdə nail olduğu sıçrayışlı yüksəlişlə, o cümlədən yerləşdiyi məkanın siyasi və iqtisadi imkanlarından səmərəli formada yararlanmaqla Cənubi Qafqazın aparıcı dövlətinə çevrilib. Hər ötən il Azərbaycanın artan gücünü və imkanlarını dünyaya nümayiş etdirir, ölkəmizin beynəlxalq imicini artıran mühüm hadisələr kimi tariximizə qızıl hərflərlə yazılır.

Hazırda Azərbaycan sabitlik, əmin-amanlıq, ictimai asayişin təmin olunması baxımından dünyanın həsəd aparacağı ölkələrdən biridir. Ulu Öndər Heydər Əliyevin yaratdığı bu sabitlik ildən-ilə daha da möhkəmlənib və bugünkü nümunəvi səviyyəyə çatıb. Azərbaycanın keçdiyi inkişaf yolunun da təməlində dayanan fundamental əsaslardan biri dayanıqlı sabitlikdir. Bu mənada ictimai-siyasi sabitlik və əmin-amanlıq Azərbaycanın inkişafının təməl prinsiplərindən biri kimi qeyd olunmalıdır. Bu reallığı ölkəmizdəki inkişafı və müsbət dəyişiklikləri müşahidə edən bütün beynəlxalq strukturlar da etiraf edirlər.

Sosial-iqtisadi sahəyə gəldikdə isə, qlobal böhranın fəsadlarına baxmayaraq, respublikamızın iqtisadiyyatı son iki ildə yenidən inkişaf göstəriciləri nümayiş etdirir. Məlum olduğu kimi, bir neçə il əvvəl beynəlxalq səviyyədə baş verən mürəkkəb iqtisadi proseslər qlobal iqtisadiyyata sıx bağlanmış Azərbaycanın da iqtisadi həyatına təsirsiz ötüşmədi. Çətin iqtisadi dövr olmasına rəğmən Azərbaycan bu müddətdə iqtisadi dayanıqlılığını qoruyub saxlaya bildi. Həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatımız yeni keyfiyyət mərhələsinə daxil olub. Təbii ki, bu inkişaf, o cümlədən maliyyə imkanlarının çoxalması digər sahələrin də yüksəlişinə yol açır, insanların həyatı əhəmiyyətli dərəcədə dəyişir. Görünən odur ki, Azərbaycan iqtisadi böhranı uğurla və layiqincə dəf edib. Artıq iqtisadi inkişaf əvvəlki axarına qayıdıb və hər rübdən-rübə ölkəmizdə iqtisadi artım qeydə alınır.

Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin parlaq nəticələrindən biri ondan ibarətdir ki, il ərzində Azərbaycana qarşı məlum xarici siyasi dairələr, onların maraqlarına xidmət edən təşkilatlar tərəfindən aparılan qara piara, ölkəmizə qarayaxma cəhdlərinə baxmayaraq, Azərbaycan sözün əsl mənasında tam müstəqil siyasət yürüdür. Bəli, müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti məhz həyata keçirilən müstəqil siyasətimizdən qaynaqlanır.

Son ayların ictimai-siyasi proseslərinin çox vacib məqamlarından biri ölkəmizdə apreldə keçiriləcək prezident seçkiləri ilə əlaqədar siyasi arenada canlanmanın hiss olunmasıdır. Bu da təbiidir. Çünki seçkilər hər bir demokratik ölkənin həyatında mühüm siyasi hadisə sayılır. Təəssüf ki, biz bu dönəmdə də Azərbaycana qarşı bəlli siyasi mərkəzlərin həyata keçirmək istədikləri qarayaxma cədlərini görürük. Bu gün Azərbaycanda heç bir antimilli qüvvənin fəaliyyətinə yer yoxdur. Ölkəmizi qarışdırmaq, burada "ərəb baharı", "rəngli inqilablar" etmək istəyənlərin hamısının niyyəti gözündə qalıb. İndi həmin qüvvələr öz antiazərbaycançı əməllərini sosial şəbəkələr vasitəsilə reallaşdırmaq istəyirlər. Lakin Azərbaycan cəmiyyəti ayıqdır. Ölkəmizdə vətənpərvər, dövlətçilik amallarını rəhbər tutan gənclər ordusu var və bütövlükdə cəmiyyətin bütün təbəqələri Azərbaycana qarşı həyata keçirilən qərəzli kampaniyaların qarşısını almaq üçün lazım olan anda sipərə çevrilməyi, Prezident İlham Əliyevin ətrafında səfərbər olmağı bacarırlar. Bax, bu, bizim ən böyük uğurumuzdur. Məhz cəmiyyətimizin həmrəyliyi, monolitliyi xarici təzyiq cəhdlərinin qarşısının alınmasında, dövlətçiliyimizin qüdrətlənməsində, müstəqilliyimizin möhkəmlənməsində əsas amillərdən biridir.

Beləliklə, Azərbaycanda növbəti prezident seçkiləri ərəfəsində cəmiyyətimizin iqtisadi, ictimai-siyasi, mənəvi-psixoloji durumu və mənzərəsi kifayət qədər ürəkaçandır. Ən başlıcası isə, insanlar ölkəmizin inkişafının davamlı olduğunu bilir və bu inkişaf fonunda onların gələcəklə bağlı optimist hissləri formalaşır. Bu da ölkənin ictimai-siyasi mənzərəsini səciyyələndirən vacib cəhətlərdən biridir. Bir sözlə, mövcud ictimai-siyasi mənzərə Azərbaycanda prezident seçkiləri ərəfəsində özündə yüksək əhval-ruhiyyəni ehtiva edir.

Bu gün Azərbaycan cəmiyyətini narahat edən yeganə məsələ torpaqlarımızın bir qisminin işğal altında olmasıdır. Dağlıq Qarabağ münaqişəsinin bugünə qədər məhz Ermənistanın işğalçı siyasətindən əl çəkməməsi və dünyadakı ikili standartlar, o cümlədən erməni təəssübkeşliyi səbəbindən nizama salınmaması hər bir vətəndaşımızı dərindən narahat edir.

**- Yeni Azərbaycan Partiyası son qurultayında milyonların arzusunu ifadə edərək cənab İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürdü. "Niyə məhz İlham Əliyev" sualını Azərbaycan seçicisi üçün necə şərh edərdiniz?**

- Bundan əvvəl səsləndirdiyim fikirlər hesab edirəm ki, həm də bu suala tam olmasa da, müəyyən mənada cavab verir. Çünki bu gün Azərbaycan cəmiyyətində mövcud olan sabitlik və inkişaf ilk növbədə cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin uğurlarıdır.

2003-cü ilin prezident seçkilərində xalqın etimadını qazanan cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunun layiqli davamçısı kimi hakimiyyət sükanı arxasına keçdi. Bu, son dərəcə məsuliyyətli və çətin bir dövr idi. Doğrudur, ulu öndər Heydər Əliyevin nəhəng fəaliyyəti sayəsində bir çox zəruri işlər görülmüşdü. Belə ki, müstəqil dövlətin yeni Konstitusiyası qəbul edilmiş, özəlləşdirmə proqramları icra olunaraq bazar iqtisadiyyatı münasibətlərinə keçid təmin edilmiş, Azərbaycan beynəlxalq qurum və təşkilatlara üzvlüyə qəbul olunmuş, müharibədə atəşkəs, ölkədə möhkəm və dönməz sabitlik yaradılmış, "Əsrin müqaviləsi" neft kontraktı imzalanaraq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanmışdır və s. Lakin başlanan işlərin uğurla sona çatdırılmasının, bütövlükdə ulu öndərdən sonra ölkəyə rəhbərlik edilməsinin məsuliyyət yükü də ağır idi. Digər tərəfdən, müasir dövrün tələb və çağırışlarına uyğun olaraq inkişafın yeni istiqamətlərini düzgün müəyyənləşdirmək, gözlənilən neft gəlirlərindən səmərəli istifadə hesabına qısa zamanda bütün sahələrdə yüksəlişə nail olmağın da özünəməxsus çətinlikləri vardı.

Azərbaycanın müstəqilliyi ilə barışmaq istəməyən düşmən qüvvələr isə hələ də mənfur niyyətlərindən əl çəkmirdilər və "5-ci kolon"la birləşərək məqam gözləyirdilər. Onlar 2003-cü ilin prezident seçkilərindən dərhal sonra - 15-16 oktyabrda küçələrə çıxaraq yenidən ölkəni xaos və anarxiya bataqlığına çəkməyə can atdılar, kütləvi iğtişaşlar və zorakılıqlar törətdilər.

Bu, həm də yenicə seçilən, lakin hələ rəhbərliyə başlamayan yeni Prezident üçün bir sınaq sayılırdı. İlk sınaqdan cənab İlham Əliyev şərəflə çıxdı, dövlət və dövlətçiliyi bəd niyyətlərdən qorumağa qadir qətiyyətli və qorxmaz dövlət başçısı olduğunu sübuta yetirdi! Hakimiyyətə başladığı ilk günlərdən isə bəyan etdiyi prinsiplərə sədaqətini göstərdi. Müəllifi olduğu "Düşünülmüş, sürətli və davamlı inkişaf" konsepsiyasına uyğun olaraq inkişafın Azərbaycan modelini yaratdı və zaman-zaman bu istiqamətdə cəsarətli islahatlara yer verdi. Regionların sosial-iqtisadi inkişafına dair üç Dövlət Proqramı imzalayaraq edilən əlavələrlə birlikdə uğurla həyata keçirilməsinə nail oldu! Gərgin, çoxcəhətli və genişmiqyaslı fəaliyyət nəticəsində qısa zamanda kəsiyində Azərbaycan iqtisadiyyatı indiyədək görünməmiş səviyyəyə yüksəldi!

Ərazisinin beşdəbir hissəsi düşmən işğalında olan heç bir dövlət 15 il ərzində öz iqtisadiyyatını üçqat artıra, ən yüksək artım tempinə nail ola, enerji, nəqliyyat və ərzaq təhlükəsizliyini təmin edə bilməyib. Bunu təkcə biz demirik. Dünyanın mötəbər qurum və təşkilatlarının açıqladıqları nüfuzlu araşdırmaların hesabatları təsdiq edir. Məsələn, Azərbaycan 2018-ci il üzrə Dünya İqtisadi Forumunun ənənəvi inklüziv indeksində inkişaf edən ölkələr arasında üçüncü yerə layiq görülüb. Həm də Norveç, İslandiya və Lüksemburqun - Avropa dövlətlərinin başçılıq etdikləri siyahıda belə yüksək yer tuta bilmişik. Dünyanın heç yerində açıq okeana çıxışı olmayan ölkə qısa zamanda regional nəqliyyat dəhlizinə çevrilməyib. Amma Azərbaycan bunu bacarıb. Böyük İpək Yolunu bərpa etməklə, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizini yaratmaqla, nəhayət, Bakı-Tbilisi-Qars dəmir yolunu çəkib işə salmaqla! Əslində, Bakı-Tbilisi-Qars dəmir yolu regionun nəqliyyat xəritəsini büsbütün dəyişib. Təhlükəsizliyi ilə diqqət çəkən bu yol həm də Çindən Avropaya olan ən qısa marşrutdur. Çünki əvvəllər bu məsafənin qət edilməsinə 30-35 gün sərf edilirdisə, indi iki həftə kifayətdir.

Heç bir dövlət az vaxtda təkcə özünə deyil, yaxın qonşularına, Avropaya və dünyanın digər dövlətlərinə uzun müddət fayda gətirəcək transmilli layihələrin təşəbbüsçüsü, maliyyələşdirəni və gerçəkləşdirəni missiyasını üzərinə götürərək onu uğurla həyata keçirməyib. Əvvəlcə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri vasitəsilə Azərbaycan nefti birbaşa dünya bazarına çıxarıldı. 2017-ci ildə "Əsrin müqaviləsi" "Yeni əsrin müqaviləsi"nə çevrilərək özünün və kəmərin ömrünü daha 30 il uzatdı. Bakı-Tbilisi-Ərzurum qaz kəməri ölkəmizin həm də təbii qaz ixracatçısı olduğunu göstərdi, nəhəng logistika mərkəzinə çevrilən paytaxt Bakı isə yaxın və uzaq qonşularına, dostlarına əsrlər boyu fayda gətirəcək beynəlxalq layihələri reallaşdırdı, yükdaşımalara çəkilən xərcləri azaltmaqla zamana da "qənaət" edilməsinə imkan yaratdı.

Ardı Səh. 12

# Xalqın alternativsiz lideri olan İlham Əliyev yeni inkişaf mərhələsinin banisidir

**Əvvəli-Səh-11**

Müharibə vəziyyətində olan dövlətin qısa müddətdə öz paytaxtını, habelə ölkə ərazisindəki bütün yaşayış məntəqələrini yenidən tikib-qura, təzələyə və abadlaşdıra bilməsi mümkün deyil. Amma Azərbaycan bunu etdi. Ölkəmizə gələn əcnəbi turistlər və qonaqlar az vaxtda əsaslı şəkildə dəyişərək hüsnünü gözəlləşdirən Bakıya valeh olduqlarını gizlətmirlər. Yeni salınan magistral yollar, körpülər, yol aşırımları hərəkətin sürətini və təhlükəsizliyini dəfələrlə artırmış, kəndarası yolların təzələnməsi insanların rahatlığına və vaxta qənaət etməsinə şərait yaratmışdır. Son 15 ildə ölkə üzrə 15 min kilometrdən çox yol çəkilmişdir. Regionların sosial-iqtisadi inkişafına dair uğurla icra edilən üçüncü Dövlət Proqramı yeniləşmənin davamlılığını göstərən başlıca amildir.

On beş il əvvəl regionlarda uzun fasilələrlə elektrik enerjisi alan, təbii qaza həsrət qalan Azərbaycan vətəndaşları artıq bu problemlərdən qurtularaq rahatlığa çıxmışlar. Müstəqillik illərində 24 elektrik stansiyası tikib istifadəyə verən ölkəmiz isə qaz və elektrik enerjisi idxalçısından ixracatçısına çevrilmişdir.

Hazırda Azərbaycanın kosmik orbitdə iki peyki uçur. Bu peyklər ölkəmizə və başqa dövlətlərə telerabitə xidməti göstərməklə bərabər, bizi həm də dövlətimizi əhəmiyyətli informasiya ilə təmin edir.

Dünyanın heç yerində cəmi 25 yaşı olan gənc dövlətə ən məsul idman yarışını keçirmək etibar edilməyib. Azərbaycan bu məsuliyyəti cəsarətlə üzərinə götürdü, ilk dəfə keçirilən I Avropa Oyunlarının təşkilatçısı qismində çıxış etdi. Özü də bu tədbiri elə bir səviyyədə keçirdi ki, onun müəyyən etdiyi standartları ötüb keçmək yəqin ki, kimsəyə nəsib olmayacaq. Üstəlik, bir sıra imkanlı dövlətləri arxada qoyaraq Avropa idman yarışmasının ikincisi oldu.

I Avropa Oyunlarından sonra IV İslam Həmrəyliyi Oyunları keçirildi, eyni zamanda yarım milyarddan çox tamaşaçısı olan "Formula-1" yarışmasına start verildi. Həm də azarkeşlərin tam rahatlığını və təhlükəsizliyini təmin etməklə, idmançılara, hakimlərə, qonaqlara və digər iştirakçılara rahat şərait yaratmaq və boş vaxtlarını səmərəli keçirməyə yardım göstərməklə!

İndiyədək heç bir dövlət bir milyondan çox qaçqın və məcburi köçkün vətəndaşına sahib çıxaraq onlar üçün hər bir şəraiti və rahatlığı olan qəsəbə və yaşayış komplekslər salmayıb, təmirli evlər və mənzillər inşa etməyib. Bu gün 500 milyonluq Avropa bir milyon qaçqın və miqrantın öhdəsindən gələ bilmir, onların yolunu tikanlı məftillərlə kəsir, itlərlə qarşılayır, qayıqlarını dənizdə batırır, sığınacaqlarına od vurub yandırır. Azərbaycanda isə indiyədək bu məqsədlə 6 milyard dollardan çox vəsait xərclənib.

Siyasi islahatları iqtisadi cəhətdən təmin etmədən uğur qazanmaq mümkün deyil. Bu fikri dəfələrlə qeyd edən cənab İlham Əliyev Azərbaycanın siyasi nüfuzunun yüksəlməsini, beynəlxalq imicinin formalaşmasını daim diqqətində saxlayır, məqsədə çatmaq üçün müxtəlif forma və vasitələrdən məharətlə istifadə edir.

Prezident İlham Əliyevin fəaliyyətində iqtisadiyyatla siyasətin sıx bağlılığı öz əksini tapmışdır. Daxili və xarici siyasət daim bir-birini davam etdirir və tamamlayır. Azərbaycan xalqı hazırkı iqtidarın gördüyü işləri daim bəyənir və dəstəkləyir. Bunu beynəlxalq reytinq təşkilatlarının hər il ölkəmizdə bir neçə dəfə keçirdiyi sorğular da təsdiq edir. Hər belə sorğuların nəticəsində cənab İlham Əliyevin 90 faizdən çox səs topladığı elan edilir. Ölkə daxilində xalqın rifahının yüksəlməsinə və müstəqil dövlətimizin daha da güclənməsinə və qüdrətlənməsinə hesablanan siyasət ölkə xaricində xalqın milli maraqlarının qorunmasına və Azərbaycanın dünyada söz sahibinə çevrilməsinə xidmət edir.

Məhz cənab İlham Əliyevin rəhbərliyi altında görülən işlərin nəticəsidir ki, Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildi. Bu gün ölkəmiz dünyanı düşündürən və narahat edən qlobal məsələlərin müzakirə olunduğu məclislərin daimi iştirakçısıdır.

Məhz bunlardan çıxış edərək fevralın 5-də 1 milyon 500 min üzvü və 16901 ilk təşkilatı ətrafında birləşdirən Həmkarlar İttifaqları Konfederasiyası, fevralın 8-də isə Cənubi Qafqazın ən böyük siyasi təşkilatı, 700 mindən çox insanı ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası təşkilatın sədri İlham Əliyevi prezidentliyə namizəd kimi irəli sürdü. Təbii ki, bu sosial sifariş təkcə adıçəkilən təşkilatların deyil, Azərbaycan xalqının mövqeyinin ifadəsi idi. Bu, İlham Əliyevin alternativsiz lider olduğunun təsdiqi idi. Çünki cənab İlham Əliyevin alternativsiz lider olması bir sıra əhəmiyyətli məqamlara söykənir. Ölkəmizdə uzun illərdir mövcud olan ictimai-siyasi sabitlik, dövlətin nüfuzu, iqtisadi qüdrətinin yüksəlməsi, dünya siyasi arenasında söz sahibinə, Cənubi Qafqazın isə lider dövlətinə çevrilməsi, məhz cənab İlham Əliyevin müstəqil siyasətinin, gərgin əməyinin nəticəsidir.

Azərbaycan seçicisi bütün bunları görür və layiqincə qiymətləndirir. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu mənada qarşıdan gələn seçkilərdə də Azərbaycan seçicilərinin mütləq əksəriyyətinin seçimi məhz İlham Əliyevdir. Çünki bu seçim Heydər Əliyev yolunun davamı, inkişaf və güclü dövlətçilik deməkdir və Azərbaycan xalqı buna alternativ görmür.

# Azərbaycanın Ankaradakı səfirliyi prezident seçkilərinin keçirilməsinə hazırdır



Türkiyənin Ankara şəhərindəki səfirliyimizin konsulluq şöbəsində qeydiyyatda olan vətəndaşlarımızın aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərində səs verməsinin təmin edilməsi üçün hazırlıq işləri başa çatıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Mərkəzi Seçki Komissiyasının tələb və təlimatına uyğun olaraq səfirlikdə Məntəqə Seçki Komissiyası (MnSK) yaradılıb. Burada 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə 30 saylı MnSK fəaliyyət göstərir. MnSK-dan verilən məlumata görə, burada Türkiyənin Ankara, Adana, Mersin, Kayseri və səfirliyimizin konsulluq şöbəsinin fəaliyyət dairəsində olan digər bölgələrdə yaşayan, işləyən və konsulluq qeydiyyatında olan vətəndaşlarımız səsvermə hüququna malikdirlər. Artıq aktiv seçki hüququna malik Azərbaycan vətəndaşlarının adları seçici siyahısına daxil edilib, həmin siyahı təsdiq olunmaq üçün Mərkəzi Seçki Komissiyasına təqdim olunub.

# 31 Mart Soyqırımı - erməni faşizminin əsl mahiyyəti...




Zaman-zaman erməni daşnaklarının xalqımıza qarşı törətdikləri qanlı cinayətlər barədə geniş danışılıb. Bu mənfur cinayətlərini XIX əsrin əvvəllərindən başlayaraq, Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni, sözün əsl mənasında, "qan çanağı"na çevirdilər. Ermənilərin "Böyük Ermənistan" yaratmaq kimi qondarma ideyanın gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının reallaşması ilə nəticələndi. Bu qanlı tarix qısa fasilələrlə bütün 20-ci əsr boyu dönə-dönə təkrarlandı. İndi o qanlı tarixdən 100 il ötür.

Tarix təsdiq edir ki, ermənilərin Qafqazda törətdikləri qırğınlar və soyqırımı aktları bir fakta əsaslanır. Onlar nəyin bahasına olursa-olsun, Azərbaycan torpaqlarında məskunlaşmaq və aborigen xalq olduqlarını təsdiqləməyə çalışırdılar. Bu mənfur niyyəti reallaşdırmağın yolu isə azərbaycanlıların kütləvi soyqırımından və qanlı talanlardan, deportasiya siyasətindən keçirdi. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən dəhşətli soyqırımı aktı ermənilərin Qafqazda məskunlaşması üçün bir açar oldu. Onlar bu vəhşi əməlləri ilə bir növ bu bölgədə yaşamaq və Azərbaycan türklərinin tarixi vətəni olan indiki Ermənistan ərazisində dövlət qurmaq niyyətlərini reallaşdırdılar. Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Bizim ata-baba torpağımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürük. Halbuki sürə bilərik. Çünki indiki Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır".

Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açıldı, təhrif edilən hadisələr əsl qiymətini aldı. Ümummilli Lider Heydər Əliyev 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bununla da, Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşdi. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə rəhbəri Heydər Əliyev olan dövlətin verdiyi əsl tarixi qiymət idi. Təsadüfi deyil ki, bu proses sonrakı mərhələdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdi. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində, artıq dünya və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur və heç vaxt da olmayacaq. Azərbaycan Prezidenti İlham Əliyev: "Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir". Azərbaycan iqtisadi və hərbi potensialını sürətlə artırmaqda, regionun ən güclü dövlətinə çevrilməkdədir. Əgər Azərbaycan tərəfi atəşkəs barədə razılıq əldə olunan kövrək bir dövrdə milli mənafeyinə ziyan gətirəcək hər hansı güzəştə getməyibsə, indi bizim hər hansı səhv addım atacağımızı gözləmək, sadəcə, cəfəngiyyatdır. İndi Ermənistan, faktiki olaraq, xarici dövlətin forpostudur və müstəqil qərar qəbul etmək iqtidarında deyil. Digər tərəfdən də, bölgədəki nəhəng enerji və infrastruktur layihələrindən kənarda qalan Ermənistan indi də dünya maliyyə böhranının ağır nəticələrini aradan qaldıra bilmir. Azərbaycan Prezidenti İlham Əliyev: "Əgər xəritəyə baxsanız görərsiniz ki, karbohidrogen ehtiyatlarının Qərbə çıxarılmasının ən qısa yolu Ermənistan ərazisindən keçir. Lakin bu, yalnız xəritədə belədir. Amma torpağın üzərində dayananda görürsünüz ki, əslində, bu, uzun yolla gedir. Nə qədər ki, bizim torpaqlarımız işğal altındadır, bu əməkdaşlıq mümkün deyildir".

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə böhtanlar atan, siyasi və hərbi təcavüz həyata keçirən ermənilərin bu vəhşiliklərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması yönündə son illərdə bir sıra tədbirlər görülür. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən kampaniya dünyanın bir çox şəhərlərini əhatə etməklə, Azərbaycanın xaricdəki 50-yə yaxın diplomatik nümayəndəliyini və diaspor təşkilatlarını da bu prosesə cəlb etdi. Fondun hazırladığı və nəşr etdirdiyi kitab və bukletlər, Xocalı Soyqırımını əks etdirən fotoşəkillər mötəbər təşkilatlarda düzənlənən mərasimlərdə bir daha xarici ölkə vətəndaşlarının diqqətini Azərbaycan xalqının faciəsinə, ermənilərin isə vandalizminə yönəltdi. Fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu Azərbaycan həqiqətlərini bütün dünyaya tanıtdı. "Xocalıya ədalət" kampaniyası isə Azərbaycan gəncliyinin Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı Soyqırımını bütün təfərrüatı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından müasir tariximizin mühüm mərhələsi oldu. Heydər Əliyev Fondunun hazırladığı Azərbaycan internet portalı isə ermənilərin yüz illər boyu xalqımıza qarşı yürütdüyü soyqırımı siyasətini daha mükəmməl formada beynəlxalq səviyyədə təqdim edir. 6 min səhifədən ibarət olan portalda ölkəmiz haqqında, o cümlədən, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında istənilən məlumatı əldə etmək mümkündür.

Tarix heç zaman unudulmur, həm də yazılır. Erməni vəhşilikləri Azərbaycan tarixinin qanla yazılmış səhifəsi olsa da, güclü Azərbaycan yerləşdiyi bölgədə söz və nüfuz sahibi olmaqla, bütün problemlərin öhdəsindən hər zaman uğurla gəlmək iqtidarındadır.

***İmran Əbilov,***
***Respublika Ağsaqqallar Şurasının üzvü***

# Radikalların mitinq şousu ya vərdişə çevrilir, ya da məşğuliyyətə

Yenə də mitinq keçirmək barədə düşünən müxalifət görünür, uğursuzluğunu qəbul edə bilmir. Nəinki qəbul edə bilmir, hətta keçirdiyi mitinqi izdihamlı mitinq adlandırmaqla özünü aldatmağa və təskinlik verməyə çalışır. Daha maraqlı bir məqam da ondan ibarətdir ki, min nəfərdən bir az çox tərəfdaşın, daha doğrusu, qohum-əqrəbanın toplandığı bir aksiya barəsində, kifayət qədər izdihamlı bir mitinq keçirildi deyə bəyan edən "Milli Şura", əslində, bununla kifayətləndiyini və bundan artığına ümidinin belə olmadığını yaxşı başa düşür.

Sərbəst toplaşmaq azadlığı fundamental hüquqlardan biridir və Azərbaycanda müvafiq qanunvericiliyin tələblərinə üyğun olaraq vətəndaşların bu istiqamətdə öz hüquqlarından istifadə etməsi üçün heç bir manea yoxdur. Dağıdıcı qrupların ictimai dəstəyə malik olmadığını nümayiş etdirən aksiyalarda ən ağlasığmaz və əsassız ittihamlar səsləndirənlərə, ağıllarına nə gəldi deyən bu insanlara gözün üstə qaşın var deyən olmadı. Əksinə, bir ayda bir neçə dəfə mitinq keçirilməsinə icazə verildiyi halda yenə də utanmadan, çəkinmədən ölkədə fundamental hüquq pozuntularının, söz azadlığı və demokratiya istiqamətində ciddi problemlərin olduğunu iddia edirlər.

Özlərini hüquqları pozulan vətəndaşlar kimi təqdim edənlərin uğursuz mitinqdən sonra yenidən aksiya keçirməyə cəhd göstərməsi ictimaiyyət tərəfindən istehza ilə qarşılanır. Xalqın dəstəyindən məhrum olanların keçirdikləri mitinqdən zərrə qədər artığına gümanı ola bilməz. Çünki yenə də, əvvəlki aksiyalarda olduğu kimi, öz qohum-əqrəbasını toplamaq imkanından başqa heç bir çarə qalmayıb. Bu isə, o deməkdir ki, nəzərdə tutduqları bu mitinq də say, tərkib və qayə etibarı ilə əvvəlkilərdən fərqlənməyəcək.

Müxalifət düşərgəsinin elektoratı və səviyyəsi, daha doğrusu, səviyyəsizliyi heç kim üçün sirr deyil. Kimsənin bu düşərgədən gözləntiləri belə yoxdur. Hər kəsə bəllidir ki, müxalifətçilik, partiyaçılıq adı altında şou göstərənlər xalqın maraqlarının ifadə etmək niyyətində deyil. Hər bir müxalif şoumenin öz şəxsi maraqları var və bütün aksiyaları bu maraqların təmin olunmasına hesablanıb. Doğrudur, artıq şəxsi maraqlarını belə təmin edə bilmədikləri inkar edilə bilməz. Hadisələrin gedişi, onu deməyə əsas verir ki, radikalların bütün ümidləri puç olmaq üzrədir və özlərinin belə bu aksiyalardan gözləntiləri yox dərəcəsindədir.



### Şoumenlər bu aksiyanı da şouya çevirmək niyyətindədirlər

Uğursuzların monoton çıxışlarla müşayiət olunan mitinqləri iştirakçıların yaddaşına təkrarçılıq kimi həkk olunub. Eyni ssenaridən təngə gələn iştirakçıları nəzərə alan radikallar, deyəsən, bu dəfə nəzərdə tutulan mitinqə yenilik qatmaq niyyətindədirlər. Amma yenilikləri də fəaliyyətləri kimi anormal və gülüncdür. Belə ki, bu dəfə keçirmək istədikləri mitinqə mühacir həyatı yaşayan söyüş qrupunun da qatılacağını planlaşdıran şoumenlər, görünür, bu aksiyanı da şouya çevirmək niyyətindədirlər. Təbii ki, şəkil yapışdırmaq şakəri olan yapışqanların, maska ilə aksiya keçirən klounların iştirakı şoudan başqa bir mahiyyət kəsb edə bilməz. Əli Kərimli iddia edir ki, mühacirətdə olan Məhəmməd Mirzəlinin, Orduxan Teymurxanın, Tural Sadiqlinin timsalında söyüş qrupu da mitinqə qatılacaq. Görünür, söyüş savaşının cəngavərləri, sosial şəbəkənin tərbiyəsiz ünsürləri mitinqə internetin köməyi və virtual müstəvinin dəstəyi ilə qoşulacaq. Hansı internet resursları, hansı texnoloji baza və hansı texniki imkanlarla bunun reallaşacağı çox maraqlıdır. Amma hər bir halda, bunu iddia etmək, ən azından, arzulamaq hüququnu kimsə AXCP sədrinin əlindən almır.

Zənn edək ki, radikallar mühacirlərin virtual müstəvinin köməyi ilə mitinqə qoşulmasını təmin edə bilərlər. Texniki dəstəyin, imkanların olub-olmadığı da müzakirə mövzusu deyil. Maraqlı olan odur ki, heç bir intellekt tələb etməyən söyüşü, yanlış olaraq, mübarizə metodu hesab edənlərin hansı potensialından istifadə etmək fikrindədir bu uğursuzlar? Leksikonu söyüş və təhqirlərdən ibarət olan tərbiyəsizlərin hansı nitqinə, hansı müraciətinə ümid edirlər? Mitinqdə onlardan nə eşitmək fikrindədirlər? Soyüş, yoxsa təhqir?

Maraqlıdır, Kərimlinin ətrafında səviyyəsizlər, təhqirlə davrananlar azdırmı ki, hələ xaricdəki tərbiyəsizlərin virtual da olsa "import" edilməsinə ehtiyac duyur? Zənnimcə, nəinki Ə.Kərimlinin, hətta hər bir müxalifət liderinin belə səviyyəsiz və tərbiyəsizlərdən ibarət ordusu var və ictimaiyyət sosial şəbəkələrdə onların öz partiya rəhbərlərinə fədakarlığının şahidi olub. Mitinqlərə qeyi-etik çağırışlar, söyüş və təhqirlə müşayiət olunan təhrikləri də yaddan çıxan deyil. İctimaiyyət üçün maraqlı deyil, mitinqə qoşulan tərbiyəsizlər xaricdən olacaq, ya daxildən. Amma maraqlısı budur ki, görəsən, bu söyüş qrupunu mitinqə qatmaqda məqsəd nədir? Kərimli belə tərbiyəsizlərin köməyi ilə nəyə nail olmaq istəyir? Yoxsa AXCP sədrinin timsalında radikallar indi də sosial şəbəkələrdəki tərbiyəsizliyi, söyüşü mitinqə, aksiyaya daşımaq niyyətindədir? Ötən əsrin 90-cı illərindən bu vaxta qədər sivil mübarizənin yollarını tapa bilməyən radikallar bəlkə tərbiyəsiz mübarizə mütodu seçməyi planlaşdırır? Deyəsən, mitinqlərini bundan sonra söyüş şousuna çevirmək qərarlaşdırılıb.

### Başqanın sayıqlamalarının texniki dəstəyə ehtiyacı olmasa da, özünün tövsiyələrə böyük ehtiyacı var

Ə.Kərimlinin belə sərsəm iddiaları ilə yanaşı, Müsavat başqanı Arif Hacılının da sayıqlamaları dövriyyəyə buraxılıb. AXCP sədrinin hap-gopundan fərqli olaraq, bu sayıqlamaların texniki dəstəyə ehtiyacı olmasa da, başqanın özünün tövsiyələrə, öyüd-nəsihətə böyük ehtiyacı var. Çünki İsa Qəmbərin də mitinqdə iştirak edəcəyi şayiələrini yayan zaman, ən azından, səhhətini də nəzərə almaq lazım gəlirdi və Hacılıya tövsiyə olunur ki, xəstəliyi səbəbindən fəaliyyəti məhdudlaşdırılan birinin aksiyalara qatılacağı xəbəri ilə ictimaiyyəti, ən azından, tərəfdaşlarını aldatmasın.

A.Hacılı deyir ki, Müsavatın eksbaşqanı İ.Qəmbər də mitinqə qatılacaq. Halbuki onun sağlamlıq durumu buna heç cür imkan vermir. Hətta İ.Qəmbər hazırda həkim nəzarəti altınadır və ev şəraitində müalicə olunur. Yəni belə bir durumda olan kimsənin aksiyalara qatıla biləcəyi heç inandırıcı deyil. Ələlxüsus, ürək xəstəlikləri ilə əlaqədar problemləri olan birinin siyasi fəaliyyətlə məşğul olması, xüsusilə, həyati təhlükə hesab olunur və bu baxımdan, İ.Qəmbərin fəaliyyəti məhdudlaşdırılıb.

Müsavatın sabiq başqanı İ.Qəmbərin həkimi SİA-ya açıqlamasında bildirir ki, onun aksiyalara, mitinqlərə və toplantılara qatılması yolverilməzdir. Əks-təqdirdə, bu onun səhhətinə ciddi zərər vura bilər. Həkim öz açıqlamasında, xüsusilə, qeyd edir ki, sabiq başqan xəstədir və müntəzəm olaraq, müalicə olunmalıdır. Eyni zamanda, onun hərəkət etməsi, xüsusilə, siyasi fəaliyyətlə məşğul olması məqsədəuyğun deyil. Beləliklə, məlum olur ki, İsa Qəmbərin bu dəfə planlaşdırılan mitinqdə iştirakı mümkünsüzdür və Arif Hacılının onun iştirakı barədə yaydığı şayiələrin reallıqla heç bir əlaqəsi yoxdur.

Maraqlıdır, istər AXCP sədrinin, istərsə də Müsavat başqanının belə yalan və həqiqətəuyğun olmayan şayiələr buraxmaqda məqsədi nə ola bilər? Görəsən, ictimaiyyəti nə vaxta qədər aldatmağı düşünürlər və bu aldatmaq taktikası ilə nəyə ümid edirlər? Görünən odur ki, radikallar aldatmaqla, yalan informasiyalarla, şayiələrlə bu günə qədər heç bir müsbət nəticəyə nail ola bilməyiblər. Azərbaycan ictimaiyyəti yalançıların bu simasını çox yaxşı tanıyır və bu yalan üzərində qurulmuş fəaliyyətlərinə, hətta yalan vədlərinə də yaxşı bələddir. Bu baxımdan, radikalların sözlərinə, vədlərinə məhəl qoyan olmadığı üçün bundan sonra da ictimai dəstəkdən məhrum olacaq və heç bir nəticə əldə edə bilməyəcəklər.

**İnam HACIYEV**

---

## MÜXALİFƏTİN HARAM BİZNESİ



**Təhmasib Novruzov**

***Demokratik cəmiyyətlərdə müxalifətin olması təbii və hətta zəruridir. Müxalifət, yəni müxalif düşüncə, müxalif istək olmayan ölkədə demokratiyanın mövcudluğundan danışmağa dəyməz. Güclü və konstruktiv müxalifət yalnız ölkənin inkişafına, problemlərin aradan qaldırılmasına və cəmiyyətin sosial durumunun yaxşılaşmasına yardım edir ki, bunu da hər kəsdən çox ölkəyə rəhbərlik edənlər arzulayır.***

Amma müxalifət gərəkdir ki, gerçək müxalifət olsun və bütün fəaliyyəti, məhz vətəndaşı olduğu ölkənin güclənməsinə, dünyadakı yerinin və rolunun möhkəmlənməsinə, sosial inkişafın sürətlənməsinə yönəldilsin. Bizim xalq, ta qədimdən müxalif düşüncəyə meyilli xalq olub. Elə bunun ən bariz nümunəsi kimi yaranışı və formalaşması min illərlə hesablanan muğamlarımızdır. Musiqişünas olmasam da, musiqiçilər yaxşı bilirlər, yeddi muğamın hər birində "müxalif" şöbəsi var və bu şöbələr konkret muğamın ümumi ahəngindən kənara çıxır. Ancaq bütün muğamlarda fərqli ahənglə ifa olunan "müxalif" şöbələrinin heç biri həmin muğamın ümumi ahənginə xələl gətirmir, əksinə, ifanı bir az da gözəlləşdirir və ifaya əzəmət gətirir. Müxalifətçiliyi qədim milli sənətimizin də qanına hopduran bu millətin ümumi ahəngdən kənar ifaya və cəmiyyətin həyatında isə idarəçiliklə bağlı fəaliyyətə müxalif olmağa köklənmiş bir ənənəsi var. Yəni müxalifət gərək elə fəaliyyət göstərsin ki, onun atdığı addımlardan cəmiyyət zərər görməsin, əksinə, inkişafın ümumi məqsədlərinə kömək etmiş olsun. Amma bizim müxalifətin fəaliyyəti yönəlib tamamən başqa məqsədlərə. Bu, 20-25 il əvvəl də, yəni sovet imperiyası rejimindən qurtulub müstəqil yaşamağa başladığımız ilk illərdə də belə idi, nə yazıqlar ki, bu gün də belədir. Bunun da, mənim anladığıma görə, iki başlıca səbəbi var. Birincisi odur ki, bizim müxalifətimiz milli deyil. Yəni ki, milli dəyərlərimizə, milli mentalitetimizə əks gedir və ölkənin idarə olunmasının ümumi ahənginə xələl gətirir. Məsələn, bizim dəyərlərimizə görə şər, böhtan və qarayaxma yasaqdır. Müxalifətimizin danışdıqlarının, meydanlarda, onlayn efirlərdə əsib-coşub söylədiklərinin yüzdə yetmişi şər-böhtandı. Qalan otuz faizi isə bütün ölkələrdə mövcud olan əyər-əskiklərdir ki, bizim ölkədə də var. Bax elə, o otuz faizi həll eləmək üçün daha ağıllı, daha konstruktiv fəaliyyət göstərmək olar ki, bundan da həm cəmiyyətimiz, həm də dövlətimiz qazanar. Amma yox, bizim müxalifətimizin dediyi təkcə budur ki, bunlar pisdi, getsinlər, biz gələk, hər şeyi düzəldək. Yəni "simsim"in nağılında olduğu kimi, bir kəlmə ilə dünyanın bütün var-dövlətini yığacaqlar Azərbaycana, camaat da yeyib-için kef edəcək. Yox, dadaş, millətin belə nağıllardan gözü toxdur. İkinci bir səbəb də var. O da ibarətdir ondan ki, bizim müxalifətimiz müstəqil deyil. Yəni müstəqil ölkənin əsarətdə olan müxalifətidir. Gah Şimala, gah Cənuba, çox zaman da Qərbə üz tutub ağa axtaran, tapanda da nə şərt qoysalar fərqinə varmadan qəbul edən, sifarişləri canla-başla yerinə yetirməyə çalışan siyasətçilərdən bu millət nə gözləyə bilər axı? Amma öz aramızdı, pis biznes deyil a... Qərbin gicbəsərlərinin pullarını alıb, inandırırlar ki, xalq bizə dəstək verəcək, hakimiyyətə gəlib sizin bütün istəklərinizi həyata keçirəcəyik. Aldadırlar, pullarını alıb həzmi-rabedən keçirirlər, sonra da özlərini sığortalamaq üçün başlayırlar bağırmağa ki, ay haray, qoymayın, səsləri oğurladılar. Atalarımız nə deyib? Yeməyənin malını yeyərlər. Qərbin də bəzi-bəzi dairələrinin pulu o qədərdir ki, imkan tapıb xərcləməyə yer tapmırlar. Bundan da bizim "ağıllı" müxalifətimiz istifadə edib, ciblərini doldurur. Allah bərəkətini çox eləsin deyərdim, amma demək olmur. Çünki nə olur-olsun, belə qazanc haramdır. Müsəlmanıq, axı!..

# Arqument olmayanda və ya siyasət tükənəndə

## *Söyüşkənlər yığnağının qeyri-mədəniyyətsiz "tərbiyələri"*

***Söyüş və təhqir...Bu üsul, əsasən, zəif insanlara aid olan bir haldır və söz, arqument olmayanda, tərəflərdən biri son anda öz "gücünü" bu xüsusda nümayiş etdirməyə cəhd göstərir. Ümumiyyətlə, özündə qeyri-mədəniyyətsizliyi əks etdirən sözügedən üsulla heç bir qalibiyyət əldə etmək mümkün deyil. Təəssüf ki, eyni hal uzun illərdir, müxalifət düşərgəsinin dağıdıcı cinahında yer alan "liderlər"də və onların istər buradakı, istər xaricdəki dəstəkçilərində köklü şəkildə formalaşıb. Yəni, bu gün sağlam düşüncəli ictimai rəydə söyüşkənlər yığnağı olaraq tanınan zümrə dövlət maraqlarımızın və atributlarımızın əleyhinə xüsusi aqressivlik fonunda fəaliyyət göstərməkdədirlər. Baxmayaraq, artıq belə bir "siyasətin" nə milli, nə mənəvi, nə də insani davranışa aidiyyatı olmadığını kifayət qədər insanlar bəyan ediblər. Hətta müxalif düşərgədə olan bir çox partiya təmsilçiləri də belə bir çirkin siyasətin azərbaycanlıya xas olmayan yanlış addım olduğunu vurğulayıblar. Bu zaman belə bir sual yaranır ki, əcəba, belələrinin bütün dəyərləri ayaq altına ataraq, anormal davranışlar nümayiş etdirmələrinə kimlər rəvac verirlər? Sosial şəbəkələrdə dövlət rəhbərliyinə, nüfuzlu hökumət adamlarına, siyasi və ictimai xadimlərə qarşı söyüş kampaniyaları nəyə görə daha öncələr gözə dəymirdi və birdən-birə bəlli hadisələrin kökü haradan qaynaqlanır?***




### Buna, həm də "psixoz çərçivə" deyilir tibbdə...

Sirr deyil ki, Azərbaycanın dövlət maraqlarını illərdir ki, anti-milli dairələrə satan, bunun müqabilində siyasi biznes quran, Avropada, bütövlükdə isə, Qərb dövlətlərində erməni diaspora qurumları ilə sıx əlaqələr yaradaraq, həmin bizneslərini genişləndirməyə çalışan qruplar, eləcə də, onları buradan - Azərbaycandan idarə edən siyasi partiyalar mövcud olub, bu, gün də qalmaqdadır. Baxın, sadəcə bir misal gətirək. Yuxarıda da, qeyd etdiyimiz kimi, hətta müxalifət düşərgəsində təmsil olunan partiya rəhbərləri belə, misal üçün, AXP sədri Pənah Hüseyn, MDP sədri Nemət Pənahlı, AMİP rəhbərliyi, o cümlədən "REAL" hərəkatının səlahiyyətliləri söyüş və təhqirin, insanların şəxsiyyətlərini alçaldan hərəkətlərin iyrənc, həmçinin, yolverilməz bir addım olduğunu dəfələrlə bəyan ediblər, buna son qoyulmasının vacibliyini bildiriblər. Halbuki yuxarıda adları çəkilən partiyalar da zaman-zaman hakimiyyətə qarşı radikallıqları ilə seçiliblər, bu gün də loyallıqları sezilmir. Amma gəlin görək, xarici ölkələrdəki söyüşkənlər yığnağının ağızlarının yummaları üçün özlərini dağıdıcı müxalifət "liderləri" adlandıran digər kəslər çağırışlar ediblərmi? Məsələn, AXCP sədri Əli Kərimli, "Milli Şura" sədri Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Oqtay Gülalıyev, Eldəniz Quliyev, Müsavat başqanı Arif Hacılı, partiyanın sabiq başqanı İsa Qəmbər və sairələri, bircə dəfə də olsa, ağızlarını açıb, siyasi mübarizənin etik davranışlar çərçivəsində aparılmalı olduğunu bəyan ediblərmi? Əsla! Çünki onların siyasət yürütmək "etikaları" bundan o tərəfə deyil və ələlxüsus, Avropadakı orduxanların, məhəmmədlərin, turalların və s. ağızları söyüş girdabından çirkaba bulaşanların bəlli hərəkətləri elə özlərinin "siyasətləri" ilə üst-üstə düşür. Yazının əvvəlində də, qeyd etdiyim kimi, söyüş söymək, qarşı düşərgədəki şəxsləri təhqir etmək üsulu, bilavasitə zəif insanlara aid olan bir haldır və söz demək, cavab vermək arqumenti olmayanda, tərəflərdən biri son anda öz "gücünü" bu xüsusda nümayiş etdirir - söyür, təhqir edir, həqarətlərini hər kəsin eşitməsini istəyir. Buna, həm də "psixoz çərçivə" deyilir tibbdə. Daha dəqiq desək, onlar düşdükləri cılızlıq çərçivəsindən çıxa bilmirlər, sanki həmin çərçivə onlara bir qəfəsdir. Qəfəsə salanlar isə radikal müxalifət "liderləri" və əlbəttə ki, xarici havadarlarıdır. Pul deyirsən pul, oturum izni deyirsən, oturum izni və s. Təki siz söyün, təhqir edin və bunu davamlı tərzdə qaydaya salın.

### Həqiqət də budur ki, özünə azərbaycanlı deyən şəxs heç zaman bu yola gedib, özünü xalq, millət qarşısında bədnam etməz!

Daha bir maraqlı nüansı dəyərli oxucuların diqqətinə çatdırmaq istərdim. Bu gün Ermənistanda cərəyan edən siyasi-iqtisadi tənəzzül erməni xalqının əzilməsi, dalana dirənməsi və başqa hallarla müşahidə olunmaqdadır. Ölkədəki səfalət və aclıq son həddinə çatıb və başını qaldıran istənilən şəxsə amansız divan tutulur. Fəqət, gəlin görək ac-yalavac erməni dövlət atributlarına, rəhbərlərinə qarşı orduxanların, məhəmmədlərin və başqalarının etdiklərini edirlərmi? Məgər Avropada erməni yoxdur? Var, özü də həmin ermənilər ki, bu gün sözdə müxalifəti əməlli-başlı maliyyələşdirir, məlum söyüş kampaniyalarını sifariş edirlər. Məsələ də bundadır ki, açıq-aşkar sosial şəbəkələrdə virtual terrorçuluqlar edən milli xəyanətkarlar bir faktı anlamırlar, ya da anlamağa sərf etmir ki, onlar hazırda düşmən ermənin əlində oyuncağa çevriliblər, ermənidən betər ermeniyə dönüblər. Onlar və onları Azərbaycan edən "liderlər"! Bax, həqiqət də budur ki, özünə azərbaycanlı deyən şəxs heç zaman bu yola gedib, özünü xalq, millət qarşısında bədnam etməz!

### Daxillərində yaranmış zooloji instinktlərin onların bioloji kodlarını məhv etdiyini düşünə bilərik...

Sonda isə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, şöbə müdiri Əli Həsənovun facebook səhifəsində xarici ölkələrdə anti-Azərbaycan kampaniyası aparan bir qrup şəxs haqqında paylaşdığı statusdan bir xatırlatmanı etmək istərdim. İnsanların təkcə bildikləri danışıq dilində deyil, eyni zamanda, malik olduqları mədəni-mənəvi keyfiyyətlərin dili ilə danışdıqlarını deyən dövlət rəsmisi, həmçinin, bildirib ki, insanın mahiyyəti nədirsə, davranış və leksikonu da elədir. Təbii ki, doğru nəticədir. Çünki yuxarıda sadalanan fikirlərlə yanaşı, tam əminliklə deyə bilərik ki, dağıdıcı müxalifət düşərgəsinin "liderləri" də daxil olmaqla, onların Avropadakı söyüş və təhqir dillərini ictimailəşdirən zümrələr tərbiyə baxımından, mədəni-mənəvi keyfiyyət baxımından o qədər kasaddırlar ki, artıq bu kasadlıq özü-özlüyündə hər şeyi tam çılpaqlığı ilə üzə çıxarıb. Bu gün həqiqi azərbaycanlı kişilsi, namus və ləyaqətini qoruyan şəxs bu cür çirkablı bataqlıqlarda çabalamaz. Bu baxımdan, "Ailəsinin şərəfini gözləyən hər bir şəxs başqasının ailəsini də təhqir etməz! Özünə rəva görmədiyi ədəbsiz ifadələri başqası barədə də işlətməz!"-deyən Əli müəllim, həmçinin. demək istəyib ki, sosial şəbəkələrdə virtual qarşıdurmalar davam edir və belə də olacaq. Ancaq həddi qorumaq, müəyyən cızıqlardan çıxmamaq hər kəsin, xüsusilə, özünü əsl azərbaycanlı hesab edənlərin mənəvi borcudur: "... Azərbaycanı söyməklə öz komfortlu yaşayışınızı təmin etmək, "İŞİD"-in virtual versiyasını yaradaraq, Vətəninizə qarşı savaş açmaq insanlıq simasını itirmək deməkdir... Düşünürəm ki, cəmiyyətimiz belələrinə sükutla yanaşmamalı, diasporumuz, media nümayəndələrimiz, ictimai fəallarımız seyrçi mövqe tutmamalıdırlar...Düşünürəm ki, məskunlaşdıqları ölkələrdə digər çoxminli soydaşlarımızdan nümunə götürərək, bu insanlar öz həyatlarını qanunlar və əxlaq normaları çərçivəsində qursalar, Azərbaycandakı qohum-əqrəbaları da onlara görə utanmaz, əksinə, qürur duyarlar...".

Bax, belə, dəyərli oxucularımız... Ümumiyyətlə, cənab Əli Həsənovun statusundan ayırdığım hissələri, xüsusi olaraq təkrar etməklə, o fikri əhatə etməyə çalışdım ki, əgər bütün bu kimi bənzər iradlardan, tənbehlərdən və tənqidlərdən nəticə çıxarmayanlar olacaqsa, artıq onların insaniyyətlik çərçivəsindən çıxdıqlarını, hətta daxillərində yaranmış zooloji onların bioloji kodlarını məhv etdiyini düşünə bilərik...

***Rövşən NURƏDDİNOĞLU***

## *Qərbdə züy tutanlar*

Qoduq mənfurluğu eyləmədən dərk,
Hər biri qışqırmaq istər daha bərk,
Eşşəklər burada anqırır, bişəkk,
Buraxıb arxadan üfunətli buğ,
Qərbdə züy tutmaqda beş-üç qor-qoduq.

Orxanla Məhəmməd uzunqulaqdı,
Turalda problem qalaq-qalaqı,
Sərsəm Vidadidə sancan dalaqdı,
Pulla qızışdırıb hərdən başları,
Çırpır başlarına Soros daşları.

Dollar verən Qərblə qoşa yolları,
Cırır ciblərini bossun pulları,
Onlar üstün tutur senti, dolları,
Pulu verməyəndən azca küsərlər,
Pul qazanmaq üçün əmcək kəsərlər.

Həbib Müntəzirdi, Turaldı məddah,-
Gah Sevinc, gah Leyla, Xədicədi gah,
Hər biri sərvəti sayır qibləgah,
İstərlər tələsik doldursun cibi,
Odur ki, qışqırır gəldikcə təbi.

***VALEH***

### Afrində partlayış: 3 türk hərbçisi şəhid oldu



Suriyanın Afrin şəhərində antiterror reydləri zamanı əl qumbarası partlayıb.Trend-in məlumatına görə, Türkiyənin baş naziri Binəli Yıldırım deyib ki, partlayış nəticəsində 3 nəfər türk əsgəri şəhid olub, daha 3 əsgər yaralanıb. Yaralılar yaxınlıqdakı xəstəxanaya çatdırılıb. Qeyd edək ki, martın 18-də Türkiyə Silahlı Qüvvələri Afrin şəhərini PYD ve YPG terrorçularından azad edib. Xatırladaq ki, yanvarın 20-də Türkiyə Silahlı Qüvvələri Suriyanın Afrin bölgəsində PYD, YPG və İŞİD terrorçularına qarşı əməliyyata başlayıb. "Zeytun budağı" adı altında keçirilən əməliyyatlara Türkiyə Hərbi Hava Qüvvələrinin "F-16" təyyarələri də cəlb olunub.

### Çexiyada kimya zavodunda partlayış: ölənlər var

Çexiyanın Kralupi-nad-Vltavou şəhərində yerləşən kimya müəssisəsində partlayış baş verib. Trend-in məlumatına görə, partlayış nəticəsində 6 nəfər ölüb. Çoxlu sayda yaralının olduğu deyilir. Hadisənin baş vermə səbəbləri araşdırılır.

### Cəzaçəkmə müəssisəsinə burnunda tiryək keçirmək cəhdinin qarşısı alınıb



Penitensiar xidmətin əməliyyat aparatının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində 7 saylı cəzaçəkmə müəssisəsinə narkotik maddənin keçirilməsi cəhdinin qarşısı alınıb. Trend-in xidmətin saytına istinadən məlumatına görə, Cinayət Məcəlləsinin 317-2.1; 67.1; 206.3.1; 206.3.2; 234.1; 234.4.3-cü maddələrinə əsasən 10 il 2 ay müddətinə azadlıqdan məhrum edilmiş məhkum Bağırov Babək Surxay oğlunun yanına qısamüddətli görüşə gəlmiş qardaşı Bərdə rayon sakini Babayev Dəyanət Nürəddin oğlunun üzərinə və əşyalarına baxış keçirilən zaman burun boşluğunun içərisində gizlətdiyi kağız bükülüdə 2.008 qram narkotik vasitə - tiryək aşkar edilib. Qeyd olunan faktla bağlı araşdırma aparılır.

# Azərbaycanda demokratik seçki hüququ

***İndiyədək iqtidarın keçirdiyi bütün seçkilər demokratik xarakter daşıyıb. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində deyirdi: "İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır".***

Azərbaycana demokratiya dərsi keçən bir sıra beynəlxalq təşkilatlar və xarici ölkələrin demokratiyanın inkişafına xidmət edən bir çox təsisatları, iqtidarı dəstəkləyən qüvvələrlə nisbətdə xeyli zəif görünən siyasi müxalifəti dəstəkləməklə, müəyyən paritetə nail olmağa çalışırlar. Lakin hər hansı bir siyasi qüvvənin hansı ideya bazasında və ya hansı sosial təbəqə və ya qrupun mənafeyi mövqeyindən meydana çıxdığı onları maraqlandırmır...

Onları bəlkə də maraqlandırmaya bilər. Lakin biz buna biganə qala bilmərik. Çünki biz əsl demokratik cəmiyyət, güclü iqtidar və sağlam əsaslara malik güclü müxalifət tərəfdarıyıq. Çünki həqiqət mübarizədə aşkar olur. Təki mübarizə fikirlər və ideyalar arasında getsin. Bu baxımdan, bizcə, iqtidar özü müxalifətin, bu və ya digər konkret siyasi partiyaların püxtələşməsində və yüksək siyasi mədəniyyətə yiyələnməsində maraqlıdır. Lakin stol uğrunda mübarizə aparan və öz mübarizəsi ilə ümumi dövlətçilik işinə ziyan gətirməkdən çəkinməyən və açıq-aşkar düşmənçilik mövqeyi tutan qüvvələrə belə alicənablıqla yanaşmaq çətin olur.

Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyev siyasi kursunun strateji tezisi belədir: seçkilər demokratik və ədalətli keçirilməlidir. Müxtəlif ekspertlərin, necə qiymətləndirməsindən asılı olmayaraq, ölkədə keçirilmiş əvvəlki seçkilər başlıca məsələyə - milli dövlətçiliyin təkamül yolu ilə dirçəlişinə xidmət etmişdir. Bu mənada, onların tarixdə öz yeri var və sistem yaradıcı xarakter daşımışdır. Hazırkı seçkilər isə mərhələli mahiyyətə malik idi. Belə ki, ölkə Qərb sivilizasiya modelinə inkorporasiya prosesində Avropanın beynəlxalq strukturları ilə inteqrasiyanın yeni səviyyəsinə çıxmışdır. Biz bu seçimi etmişik.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev seçkiqabağı marafonun lap əzəlində hamını və hər şeydən əvvəl, məmurları ölkənin siyasi müxtəlifliyini - sabahkı parlamentin simasını bütünlüklə üzə çıxartmaqdan ötrü yerlərdə lazımi şəraitin yaradılmasına çağırmışdır.

O da aydındır ki, Heydər Əliyev kursu həmişə - istər radikal meydan qrupları, istərsə də hakimiyyət isteblişmentində kommuno - mühafizəkarlar olsun, onlara qəyyumluq edənlər tərəfindən aktiv müqavimətlə rastlaşmışdır. Onların - kommunizm və sovetizmin yeni və köhnə ideoloqlarının birləşməsi labüd fakt idi. Bu insanları lap əzəldən şəxsiyyətin fərdiliyini və deməli, demokratik cəmiyyətin köklü prinsipi sayılan insan hüquqları fəlsəfəsini, birmənalı şəkildə inkar edən kütləyə üz tutmaq məntiqi bir-birinə bağlamışdır.

"Rəngli inqilabçılar" - qırmızı və narıncılar ittifaqının Bakıda törətmək istədiyi yalançı inqilab, yəqin ki, gənc və sağlam respublikanın cismində atavizm təzahürlərinin son əlamətləri kimi nəzərdən keçirilməlidir. Belə ki, hadisələrin son gedişatı da göstərdi ki, respublika əhalisinin əksər hissəsi demokratik seçkilər uğrunda ölkə başçısının apardığı mürəkkəb mübarizədə, birmənalı olaraq, onu dəstəklədi.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycanda siyasi plüralizm varsa, demək, siyasi müxalifət olmalıdır. Siyasi müxalifətin olması hər bir dövləti həm totalitarizmdən xilas edir, həm də dövlət siyasətinin aparılmasında dövləti daha da sayıq saxlayır".

Demokratik seçki hüququ demokratik cəmiyyətdə reallaşa bilər. Bizim fikrimizcə, demokratiyanın əsasında fikir plüralizmi dayanmalıdır. Müxtəlif siyasi partiyalar yaranmazdan əvvəl, müxtəlif siyasi baxışlar və müxtəlif inkişaf proqramları ortaya çıxmalıdır. Siyasi partiyalar da eyni siyasi baxışları olan, eyni fəaliyyət proqramları olan və əqidəcə yaxın adamların birləşməsindən yaranmalıdır. Azad mətbuat və fikir azadlığı ondan ötrüdür ki, cəmiyyətdə gedən proseslərə şəxsi münasibəti olan hər bir adam öz fikrini ifadə edə bilsin. Əvvəlcə şəxsi ideyaların, mövqelərin ictimai şüura daxil olması lazımdır və bunun üçün azad siyasi meydan və azad mətbuat tələb olunur.

Siyasətin əlifbasını öyrənən kimi hərə öz partiyasını yaratmağa çalışır və öz ətrafında fikirdaşlarını deyil, tərəfkeşlərini toplayır. Tərəfkeşliyin şərtləri isə müxtəlif olur və çox vaxt təsadüfi amillərdən asılı olur. Ona görə də, belə partiyalar dayanıqlı olmur və teztez parçalanmalar və qarşılıqlı transferlər baş verir.

Əvvəlcə siyasi partiya adı altında şəxsi fikrin mütləqləşdirilməsi və birinci şəxsin hakimiyyət iddialarının rəsmi status alması baş verir və ancaq bundan sonra "siyasi mübarizə" başlanır.

Mətbuatda da analoji proses gedir. Əvvəlcə kimsə öz qəzetini qeydiyyatdan keçirir və sonra azad mətbuat ideyası ilə manipulyasiya edərək, öz şəxsi mövqeyini ictimai fikir kimi təqdim edir.

Hər iki halda (həm partiya, həm də mətbuat orqanı), xalqın mövqeyi və maraqlarından deyil, kiminsə şəxsi ambisiyalarından çıxış edilir. Nəticədə, ancaq zahiri bir demokratiklik təəssüratı yaranır. Əsil demokratiya isə, bu və ya digər partiyaya mənsubluğundan, yaxud bitərəfliyindən asılı olmadan, istənilən adamın öz şəxsi fikri ilə mətbuata çıxmasını və ictimai rəyin formalaşdırılmasında, bilavasitə iştirak etməsini nəzərdə tutur. Azad mətbuat olmadıqda isə, müstəqil bir insan öz fikirlərini hansı isə partiyanın və ya qəzet sahibinin mövqeyi prizmasından keçirmək məcburiyyətində qalar.

Fikirlərin, ideyaların, konsepsiyaların, inkişaf proqramlarının, sosial modellərin və sosial idealların meydana çıxması, saf-çürük edilməsi, uyğun gələnlərin təbii yolla qruplaşması, fərqli qruplar arasında müzakirələrin və mübarizənin formalaşması müxalifətin yaranması üçün əsas şərtdir. Lakin mübarizə meydanına yüz minlərlə adamın maraqlarını əks etdirən fikirlər, konsepsiyalar əvəzinə, tək-tək başqanların, sədrlərin, redaktorların şəxsi ambisiyaları, rəyasət iddiaları və maraqları çıxır. İlk baxışda çoxlu müxalifət partiyalarının və həddindən artıq qəzetin olması və bunların böyük əksəriyyətinin iqtidara qarşı təhqiramiz mövqedən çıxış etməsi güclü müxalifət illüziyası yaradır. Halbuki müxalifətin gücü, qəzetlərin sayı və tənqidi çıxışların kəskinlik dərəcəsi ilə deyil, irəli sürülən ideyaların pozitivliyi, qurucu xarakteri və bu ideyaları dəstəkləyən sosial təbəqələrin genişliyi ilə müəyyən olunur. Real ehtiyaclardan yox, şəxsi iddialardan qondarma yolla yaradılmış partiyalar heç vaxt güclü ola bilməz.

Siyasi plüralizmin qərarlaşması, partiyaların yaranması təbii yolla olmalıdır. Əvvəlcə cəmiyyətin bütün təbəqələrinin siyasi şüur səviyyəsinin yüksəlməsi, ölkədə gedən proseslərdən baş açmaq üçün cəmiyyətşünaslıqla, dövlət quruculuğu ilə, iqtisadi islahatlarla bağlı biliklərin geniş yayılması, təhsil müəssisələrində gənclərin dünyagörüşünün, siyasi, hüquqi, iqtisadi, mədəni, mənəvi sahələrdə biliklərinin baxışlarının inkişaf etdirilməsi, milli mənafelər istiqamətində yönəldilməsi sahəsində böyük, geniş və ümummilli bir proses getməlidir. Başqa sözlə, hər şeyin əvvəlində yenə də maarifçilik, sağlam şüur və yüksək mədəniyyət dayanmalıdır. Kütləvi informasiya vasitələri, nəşriyyatlar, elm və təhsil müəssisələri bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərməlidir.

Bir sözlə, əvvəlcə siyasi partiyaları doğan cəmiyyətin özü yetişməlidir... Bu yerdə demokratiyanı yeniyetmə qıza bənzədən Oljas Süleymenovun məşhur fikri yadıma düşdü. Gəlin, demokratiyanı zora salmayaq, siyasi dözüm göstərərək, cəmiyyətin özü yetişdikcə, demokratiya da öz töhfələrini verəcəkdir.

Demokratiya - xalqın hakimiyyəti deməkdir, əhalinin və ya onu təmsil etmək iddiasında olan bir qrup aqressiv əhvallı kütlənin yox...

Cəmiyyət, heç şübhəsiz, yeknəsəq bir toplum deyil. Onun ziyalı elitası da olur, milli mənafelərini təmin etmək iqtidarında olan məsuliyyətli adamlar da olur, bununla yanaşı, analitik təhlil qabiliyyətindən məhrum olan, tezcə başqalarının təsiri altına düşən və təhriklərə uyan adamlar da olur. Ona görə də, cəmiyyətdə qruplaşmalar yaratmaq və dəstələr düzəltmək həmişə mümkündür. Sadəcə olaraq, inkişaf etmiş ölkələrdə, siyasi mədəniyyətin yüksək olduğu yerlərdə bu qruplaşmalar partiyalar və ictimai təşkilatlar şəklində olur və onlar öz iradələrini siyasi metodlarla və ilk növbədə, seçkilər vasitəsilə həyata keçirməyə çalışırlar.

Lakin şübhəsiz ki, hər bir cəmiyyətin mütərəqqi yönümlü ünsürləri ilə yanaşı, narazı qüvvələr də olur, cinayətkar ünsürlər, anarxistlər, cəmiyyətin tör-töküntüləri də olur.

Əhali bunların hamısını ehtiva edir, hamı bir vətəndaş olaraq, səs vermək hüququna malikdir.

Ona görə də səsvermə, əslində, xalqın deyil, əhalinin mövqeyini əks etdirməyə yönəmlidir. Ziyalı elitasının məqsədi isə, bu paradoksu aradan qaldırmaq, əhalinin pərakəndə strukturunu xalqın yekun iradəsi ilə kompensasiya etməkdən ibarətdir.

Səsvermədə iştirak edənlər arasında siyasi cəhətdən yetkin olmayan adamlar öz mövqelərini ümummilli mənafe baxımından deyil, əsasən, şəxsi və məhəlli xarakterli mənafelər baxımından bildirir, xalqın taleyini və müqəddəratını düşünmək əvəzinə, bəzən təsadüfi təsirlər altına düşürlər və yalan vədlərə aldanırlar.

Ona görə də, ümumxalq mövqeyindən və dövlətçiliyin daha da möhkəmləndirilməsi mövqeyindən aparılan təbliğatla kütlə psixologiyasının zəif məqamlarına istinad edən təbliğat arasında köklü fərq vardır. Heydər Əliyevin mövqeyi və məqsədləri ancaq siyasi xal toplamaqdan ibarət olan digər namizədlərin çox vaxt populist xarakter daşıyan çıxışlarından fərqli olaraq, təbliğatdan daha çox təhlilə və acılı-şirinli əsl həqiqətin kütlələrə çatdırılmasına əsaslanır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 mart


## Yağlı qidaların kişi sağlamlığına ziyanı



Şimali Karolina Universiteti (ABŞ) alimləri araşdırmalar nəticəsində belə qərara gəliblər ki, yağlarla zəngin olan qidalanma, xüsusilə yağlı ət və pendir növlərinin çoxlu miqdarda qəbulu, kişilərdə prostat vəzi xərçəngnin ən ağır formalarının inkişafına təkan verir.

Belə ki, alimlər 5 il ərzində 2000-ə yaxın prostat vəzi xərçəngi olan kişilərə nəzarət ediblər, onların qidalanmasını, həyat tərzini araşdırıblar. Nəticədə alimlər belə qərara gəliblər ki, qidalanmasına daha çox polidoymamış yağlar olan (məsələn, balıq, qoz və s. kimi məhsullar) kişilərdə prostat vəzi xərçənginin daha yüngül formaları inkişaf edirdi. Əksinə tez-tez yağlı ət, yağlı pendir kimi məhsulları qəbul edən kişilərdə prostat vəzi xərçənginin ən ağır formalarına rast gəlinirdi.

Həmçinin qanda xolesterinin səviyyəsini aşağı salan “statin” preparatları qəbul edən kişilərdə də bu xəstəliyin ağır formalarının inkişafı riski daha aşağı idi.

Bu yaxınlarda keçirilmiş digər araşdırma göstərib ki, statin preparatların qəbulu prostat vəzi xərçənginin müalicəsində istifadə oluna bilər və müalicəni daha effektli edə bilər.

## Qrip İnfarktın Riskini 6 Dəfə Artırır



Qrip infeksiyası, xüsusilə B tip qrip virusu yaşlı insanlarda infarkt riskini 6 dəfə artırır. Saglamolun.az xarici KİV-lərə istinadla xəbər verir ki, bunu Kanada alimləri araşdırma zamanı aşkar ediblər. Onların müşahidələrinə görə, qripin ilk 1-ci həftəsi bu mənada xüsusilə təhlükəlidir. Ürək-damar sistemi xəstəlikləri, yüksək təzyiqdən əziyyət çəkən insanlar risk qrupundadır.

Araşdırma zamanı alimlər 20 000 insanın sağlamlıq haqqında məlumatlarını təhlil ediblər.

Bütün bunları nəzərə alaraq alimlər yaşlı insanlara qrip mövsümündən əvvəl qripə qarşı peyvənd etməyi, qripə şübhə yarandıqda dərhal həkimə müraciət etməyi tövsiyə edirlər. Nəzərinizə çatdıraq ki, qrip infeksiyası kiçik yaşlı uşaqlar və yaşlı insanlar arasında daha tez-tez fəsadların inkişafına və ölüm hallarına səbəb olur.

## Uşaqların gündə 100 kaloridən artıq qəlyanaltı qəbul etməsi zərərlidir

Uşaqlara gün ərzində 100 kalorilik və ən çoxu iki qəlyanaltıya icazə verilə bilər, həmin normanın gözlənilməməsi zərərlidir. İngiltərəli tədqiqatçılar apardıqları araşdırmalardan sonra belə nəticəyə gəliblər.

AZƏRTAC “News.sky.com” saytına istinadən xəbər verir ki, İngiltərə İctimai Səhiyyəsinin araşdırmaçıları uşaqların gün ərzində ən azı üç sağlam olmayan qəlyanaltı və şəkərli içki qəbul etdiyini müəyyənləşdiriblər.

Uşaqların üçdəbirinin gündə dörd və ya daha çox sağlam olmayan qəlyanaltı ilə qidalandığını söyləyən elm adamları bunun tövsiyə edilən şəkər miqdarını üç dəfə keçdiyini bildiriblər.

Alimlərin araşdırmalarına görə, uşaqlar şəkərin yarısını qeyri-sağlam qəlyanaltı və içkilərlə qəbul edirlər.

Balacaların hər il təxminən 400 biskvit, 120-dən çox tort, çörək və xəmir məmulatları, 100 porsiya şirniyyat, 70 şokolad və dondurma, 150-dən çox qablaşdırılmış meyvə suyu və konservləşdirilmiş qazlı içkilər qəbul etdiyini hesablayan tədqiqatçılar onun piylənmə riskini artırdığı barədə xəbərdarlıq ediblər. Mütəxəssislər təzə meyvə və tərəvəzlərdən istifadənin çoxaldılmasını tövsiyə ediblər.

## Ronaldo Çin klubuna gedir ?




“Real”ın prezidenti Florentino Peres komandanın futbolçusu Kriştiano Ronaldonun Çin klubuna keçəcəyi barədə yayılan iddialara münasibət bildirib. Qol.az-ın İspaniya mətbuatına istinadən verdiyi məlumata görə, o, bu xəbərləri təkzib edib: “Ronaldo onu komandadan buraxmağımla məndən heç bir xahiş etməyib. Onun bizimlə hələ müqaviləsi var. Əgər sizin Honkonqda bir dostunuz varsa, ondan həmin yerdə necə yaşaması ilə bağlı soruşmaq normaldır”. Qeyd edək ki, “Quançjou Everqrand”ın baş məşqçisi Luis Felipe Skolari Ronaldonun ondan Çindəki həyat haqda soruşduğunu açıqlayıb.

## Güləşçilərimiz beynəlxalq turnirdə qüvvələrini sınayırlar



Martın 22-də Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə 56-cı “Dan Kolov - Nikola Petrov” beynəlxalq turniri başlayıb. Yunan-Roma və qadın güləşi üzrə yığma komandalarımızın üzvləri turnirdə iştirak edirlər. AZƏRTAC xəbər verir ki, yunan-Roma güləşi üzrə yığmamızın məşqçisi Nurəddin Rəcəbovun rəhbərliyi altında turnirdə Elman Muxtarov (67 kq) və Rəsul Çunayev (72 kq) birincilik uğrunda mübarizə aparacaqlar.

Qadın güləşçilərin yarışında isə Mariya Stadnik (50 kq) və Elis Manolova (68 kq) qüvvələrini sınayacaqlar. Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Əbdül Nuriyev təmsil edir. Turnirə martın 25-də yekun vurulacaq.

## Matteys de Liqt“Barselona”nın maraq dairəsindədir




İspaniyanın “Barselona” futbol klubu müdafiəçi axtarışını davam etdirir. SİA-nın məlumatına görə, “Ayaks”ın müdafiəçisi Matteys de Liqt kataloniyalıların maraq dairəsinə düşüb. “Barselona” yay transferi çərçivəsində 18 yaşlı hollandiyalı futbolçunu heyətinə qata bilər. Qeyd edək ki, Matteys de Liqt “Ayaks”ın heyətində çıxdığı 56 oyunda altı qol vurub.

## “Milan” “Boka Xuniors”un forvardı Pavon ilə maraqlanır




“Milan” klubu “Boka Xuniors” (Argentina) klubunun hücumçusu Pavon ilə maraqlanır. “Tuttosport” xəbər verir ki, “Milan” futbolçunu almaq imkanlarını öyrənir. Argentina klubu isə Pavonun satışından 35 milyon avro qazanmaq niyyətindədir. “Milan” vaxtilə “Boka Xuniors”un maraq göstərdiyi müdafiəçi Qustavo Qomesin də sövdələşməyə daxil olunmasını təklif edə bilər.

## “Çelsi” İkardiyə görə “İnter”ə 63 milyon avro təklif edib




İngiltərənin “Çelsi” futbol klubu hücumçu axtarışını davam etdirir. EFE agentliyi xəbər verir ki, London təmsilçisi Alvaro Morataya əvəzləyici axtarışında “İnter”ə Mauro İkardiyə görə 63 milyon avroluq təklif göndərib. Qeyd edək ki, İkardi İtaliya A seriyasında 24 oyuna 22 qol vurub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**